AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ İNSTİTUTU

*Əlyazması hüququnda*

**MÜSLÜM HƏTƏM oğlu NƏZƏROV**

# AVROPA TƏHSİL MƏKANINA İNTEQRASİYA KONTEKSTİNDƏ TƏHSİLİN SOSİOMƏDƏNİ PROBLEMLƏRİ

**7207.01 - Sosial fəlsəfə**

**Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

Dissertasiya AMEA-nın Fəlsəfə İnstitutunun
"Sosial fəlsəfə və ekoloji problemlər" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Əbülhəsən Fərhad oğlu Abbasov**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Zeynəddin Camal oğlu Hacıyev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Məmməd Hüseyn oğlu Rzayev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Qoşqar Cəlal oğlu Əliyev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** Bakı Slavyan Universiteti

Müdafiə "___" ___________ 2018-ci ildə saat "_____"da AMEA-nın Fəlsəfə İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az-1143, H.Cavid prospekti, 115, AMEA-nın Fəlsəfə İnstitutu, 9-cu mərtəbə konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" __________ 2018-ci il tarixdə göndərilmişdir.

**AMEA-nın Fəlsəfə İnstitutunun nəzdindəki**
**D 01.115 Dissertasiya Şurasının elmi katibi**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.A. Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Təhsilin anlamı problemini əbədi problemlər sırasına aid etmək olar. Bu gün də bu problem öz aktuallığını saxlayır. Bu, birinci növbədə sosiomədəni hadisə olan təhsilin çoxşaxəli və mürəkkəbliyi, öyrənilməsi zamanı hər an yeni şaxələri və xassələri aşkarlamaq perspektivinin olması və deməli, onun yeni şərhinin meydana gələ bilməsi ilə bağlıdır. XX əsr fəlsəfəsində vüsət almış ümumi epistemoloji hərəkat, yəni, klassik mərhələdən neoklassik, ondan da postneoklassik mərhələyə keçid şəraitində təhsil sahəsində bilikləri genişləndirmək və dərinləşdirmək imkanları xüsusilə artdı. Sonuncu mərhələyə epistemoloji plüralizm səciyyəvidir ki, bunu da bu gün təhsil metodologiyasının magistral inkişaf yolu kimi nəzərdən keçirmək olar. Zənnimizcə, təhsilin real və ardıcıl şəkildə yeniləşdirilməsi haqqında yalnız epistemoloji plüralizm çərçivəsində danışmaq mümkündür.

Təhsil sistemlərinin, o cümlədən, Şərq ölkələrinin təhsil sistemlərinin hərtərəfli sosiomədəni təhlili göstərir ki, Avropa təhsil sistemindən fərqli təhsil sistemləri (məsələn, Asiya ölkələrinin təhsil sistemləri) də öz səmərəliliyini nümayiş etdirir. Sual olunur: Qərb təhsili ilə Şərq təhsilini necə qiymətləndirməli? Bu qiymətləndirmənin meyarları nədən ibarət olmalıdır? Bu sualların cavablandırılması təhsilin sosiomədəni təhlilinə müraciət etməyi tələb edir.

Təhsil problemlərinə fəlsəfi marağın artması, həmçinin, müasir cəmiyyətin keyfiyyətcə yeni duruma, postindustrial, informasiya cəmiyyətinə keçməsi ilə şərtlənir. Bu gün təhsil sivilizasiyanın fəaliyyət mexanizminə üzvi şəkildə qatılmışdır. Eyni zamanda, öz ehtiyatlarını artırmaq üçün təhsil elə həmin sivilizasiyanın praqmatik tendensiyalarından faydalanır. Təhsilin informasiya cəmiyyətində təyini nədədir? Yeni dünya təhsilə necə təsir göstərə bilər? Təhsilin baş verən dəyişikliklərə potensial “cavabı” nədən ibarət ola bilər? Onun qlobal və lokal problemlərin həllində imkanları nə dərəcədədir? Bu kimi məsələlər yaşadığımız postindustrial cəmiyyətdə nəzəri-metodolojidən çox, praktiki xarakter alır.

Eyni zamanda, müasir postindustrial cəmiyyətdə təhsilin rolunun artmasına baxmayaraq, ictimai rəydə, fikirdə və praktiki məsələlərin həllində onun nüfuzu düşməkdədir. Ödənişsiz təhsil sisteminin dağılmasından təhsil sisteminin bir subyekti, yəni şagird və tələbələr əziyyət çəkirsə, əmək haqqının azlığından təhsil sisteminin digər subyekti – pedaqoqlar əziyyət

çəkirlər. Təhsil müəssisələrində, ilk növbədə, orta məktəblərdə yüksək ixtisaslı müəllimlər çatışmır. Biliklərin keyfiyyəti də kəskin dərəcədə aşağı düşmüşdür. Təhsilin tədricən mərkəzdən periferiyaya keçməsi təhsilin məzmunu, onun müxtəlif sosiomədəni sistemlərdə yaşayan insanların təhsil haqqında təsəvvürlərinə nə dərəcədə uyğun olması barədə suallar doğurur. Bu və bu kimi digər məsələlər yaşadığımız postindustrial cəmiyyətdə təhsili ənənəvi metodologiya, o cümlədən iqtisadi determinizm prinsipləri çərçivəsində qiymətləndirib izah etməyin mümkünsüzlüyünü nümayiş etdirir. Onu sistemli və kompleks şəkildə öyrənmək məqsədilə fəlsəfi, sosiomədəni və nəzəri bilikləri sintez halına gətirməklə, təhsili mənəvi dəyərlərlə zənginləşdirməklə onun sosiomədəni hadisə kimi dirçəldilməsi məsələsi gündəmə gəlmişdir.

Müasir sosiomədəni dinamikanın ən mühüm tendensiyalarından biri də qloballaşma prosesləri və müxtəlif dövlətlərin təhsil sistemlərinin inteqrasiyasıdır. Təhsil sferası, ilk növbədə, qloballaşmanın təsirini öz üzərində hiss edir. Biz hesab edirik ki, qloballaşmanın ziddiyyətli tendensiyaları məhz təhsilin qloballaşmasında özünü daha dinamik və özünəməxsus şəkildə büruzə verir və buna görə də onun öyrənilməsinə ehtiyac yaranır. Təhsilin qloballaşması təkcə mövcud təhsil sisteminin tənqidini deyil, həm də yeni təhsil konsepsiyasının yaradılmasını nəzərdə tutur. Bu gün təhsil təkcə keçmişdə toplanmış bilikləri translyasiya etməməli, həm də sosiomədəni qloballaşmanın doğurduğu mənəvi-əxlaqi problemləri də təhlil etməlidir. Müasir dünyada cərəyan edən qloballaşma ilə sıx bağlı olan inteqrasiya prosesləri bu gün, əsasən, ali təhsilin inteqrasiyasında təzahür edir. Ali təhsilin inteqrasiyası Avropada daha intensiv şəkildə cərəyan edir.

Avropa ölkələrinin ali təhsil sferasında inteqrasiyasının əsas sənədi Boloniya Bəyannaməsi oldu. Azərbaycanın 2005-ci ildə Boloniya sazişinə qoşulması onun vahid Avropa təhsil məkanının yaradılmasına aparan prosesin iştirakçısına çevirdi. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020:Gələcəyə Baxış"İnkişaf Konsepsiyası» na görə, dövlətin üzərinə Azərbaycan təhsilinin dünya və Avropa təhsil məkanına inteqrasiyasının gücləndirilməsi, Azərbaycanın təhsil ocaqlarının, xüsusilə də ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişləndirilməsi, təhsil sahəsində həyata keçirilən beynəlxalq proqramlara onların fəal cəlb olunması üçün müvafiq şəraitin yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında açıqlanan əsas prinsipləri inkişaf etdirən Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının aparıcı ideyası və mərkəzi

vəzifəsi də elə məhz Azərbaycan təhsilinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün onun zamanın çağırışlarına vaxtında cavab verməsinə, təkamül yolu ilə modernləşdirilməsinə yönəlmişdir. Avropa təhsil məkanına inteqrasiya kontekstində Azərbaycan təhsilinin modernləşdirilməsi Prezident İlham Əliyevin kreativ millətlər birliyinə yol açmaq ideyasının həyata keçirilməsi üçün əsas və başlanğıc olacaq platformanı yaratmalıdır.

Dəyərlər sistemində prioritetlərin dəyişdiyi bir şəraitdə milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, polimədəni, geniş dünyagörüşünə, dialoq mədəniyyətinə, dialoji təfəkkürə malik olan kadr hazırlığı problemi aktuallaşır. Azərbaycanda təhsilin sosiomədəni inkişaf problemlərinə müraciət etməyimiz də ali təhsilin təkmilləşdirilməsi, onu zamanın tələblərinə uyğunlaşdırılması zərurətindən irəli gəlir. Təhsil islahatları siyasi və iqtisadi problemdən çox, milli-mədəni problem, cəmiyyət və milli mədəniyyətin, onların tamlığının qorunub saxlanılması məsələsidir. Qarşımızda, bir tərəfdən, qloballaşma və insanların həyat fəaliyyətinin standartlaşması, digər tərəfdən isə milli mədəniyyəti qoruyub saxlamaq zərurəti kimi kəskin dilemma durur. Deyilənlər təhsilin sosiomədəni konsepsiyasının işlənməsini tələb edir.

Azərbaycan təhsil sisteminin inkişafının, xüsusən də Avropa təhsil məkanına inteqrasiyasının təhlili bu prosesin qanunauyğunluqlarının dərki üçün ilkin şərait yaradır, eyni zamanda, dövlətin təhsil siyasətinin konturlarını çəkmək üçün oriyentirlər verir. Öz növbəsində, dövlətin təhsil siyasətinin səmərəliliyi milli təhsil sisteminin mahiyyəti və xüsusiyyətlərinin dərkindən asılıdır. Buna görə də təhsilimizin sosiomədəni inkişaf problemləri tədqiqatçıların diqqət mərkəzində olmalı, onları problemin həlli yollarını axtarıb tapmağa sövq etməlidir.

Bu gün Azərbaycan təhsilinin modernləşdirilməsi strategiyası ətrafında intensiv diskussiyalar gedir. Fikir müxtəlifliyi problemin müasir Azərbaycanın ictimai şüuru üçün əhəmiyyətindən, nəzəri və praktiki planda dərkinin aktuallığından xəbər verir. Mütəxəssislərimizin qiymətləndirmələrinə görə, Avropaya inteqrasiya, Boloniya islahatları kompleks, sistemli, eyni zamanda da ziddiyyətli xarakter daşıyır.Bu islahatlar təkcə Avropa miqyasında deyil, ayrı-ayrı ölkələrin hüdudlarında da qeyri-bərabər şəkildə cərəyan edir. Boloniya prosesi konsepsiyasının həyata keçirilməsi siyasi, iqtisadi, hüquqi və pedaqoji səviyyələrdə bir çox məsələlərin dərkini və həllini tələb edir. Dövrün aktual sosial, mədəni, siyasi, iqtisadi tələbatlarının tədqiq edilməsi, yəni cəmiyyətin təhsilə verdiyi sosial sifarişin məzmununun dəqiqləşdirilməsi, digər tərəfdən də müasir sivilizasiyada cərəyan

edən tendensiyaların ölkəmizin təhsili üçün açdığı imkanların araşdırılması aktual məsələlərdəndir. Birincisi yeni şəraitdə Azərbaycan təhsilinin məzmun aspektlərini təyin etməyə imkan verirsə, ikincisi onun həyata keçirilməsi mexanizmlərini müəyyənləşdirir.

Dünyanın aparıcı ölkələrinin təhsil siyasəti sahəsində təcrübəsinin kompleks şəkildə öyrənilməsi də elmi və praktiki aktuallıq kəsb edir. Azərbaycanın daima öz biliklərini müasir dövrün və dünya standartlarının tələblərinə uyğun artıran, hadisələrin inkişafını proqnozlaşdıra bilən mütəxəssislərə ehtiyacı var. Bununla əlaqədar Azərbaycan dövlətinin təhsil sahəsində islahatlarının ümummilli maraqlar və beynəlxalq tendensiyalar baxımından perspektivlərinin izlənilməsi mühüm əhəmiyyət kəsb edir.

İnformasiya, bilik və innovasiya texnologiyaları əsri olan XXI əsrdə təhsil sistemi insanları informasiya cəmiyyətində yaşamağa hazırlamaq kimi tamamilə yeni problemi həll etməli olacaqdır. Buna görə də "ömürlük təhsil" devizi "ömür boyu təhsil" devizi ilə əvəz edilmişdir. Bu ideyanın həyata keçirilməsi müasir təhsil sisteminin əsas ziddiyyətinin – biliklərin sürətli artım templəri ilə insan tərəfindən onların təlim dövründə mənimsənilməsi üçün imkanların məhdudluğu arasında ziddiyyətin aradan qaldırılmasına yönəlmişdir. Bu ziddiyyət təhsil müəssisələrini ilk növbədə öyrənməyi öyrənmək, informasiyanı əldə etmək və ondan lazım olan bilikləri götürmək bacarığını formalaşdırmağa,başqa sözlə, informasiya mədəniyyətinə malik olan kadrları yetişdirməyə məcbur edir.Belə kadrların hazırlanması müasir ali məktəblərdən innovasiya fəaliyyətini genişləndirməyi tələb edir. Beləliklə, tədqiqat mövzusunun aktuallığı müasir şəraitdə ali məktəblərin innovasiya fəaliyyətinin qiymətləndirilməsinə elmi yanaşmaların işlənməsi zərurəti ilə də şərtlənir.

Tədqiqat mövzusunun aktuallığı həm də onunla şərtlənir ki, qloballaşma, inteqrasiya kontekstində təhsilin sosiomədəni amillərinin təhlili və bu sahədə biliklərin konseptuallaşdırılması problemi hələ də həll olunmamışdır. Bu problem çoxaspektli olduğundan, onun öyrənilməsi üçün kifayət qədər ehtiyatlar var ki, onlar da dissertasiya işində qaldırılan və müzakirə edilən məsələlərlə bağlıdır.

Beləliklə, təqdim olunan mövzu həm nəzəri, həm də praktiki aspektlərdə aktualdır. Müasir təhsildə cərəyan edən dəyişiklikləri araşdırarkən tədqiqatçıların üzləşdiyi nəzəri-metodoloji çətinliklər təhsilin mahiyyətini dərk etmək üçün fəlsəfi və sosiomədəni bilikləri cəlb etmək, sosiomədəni yanaşmanın imkanlarından tam həcmdə istifadə edib təhsilin sosiomədəni konsepsiyasını yaratmaq zərurətinə işarə edir.

**Problemin işlənmə dərəcəsi.** Təhsil çoxşaxəli və mürəkkəb bir hadisədir. O, həm sosial təsisat, həm mənəvi həyatın spesifik sahəsi, mədəniyyətin translyatoru, həm də maddi həyatın sosiomədəni məkanının bir hissəsidir. Bu, bir tərəfdən, problemə epistemoloji plüralizm çərçivəsində yanaşmağı, digər tərəfdən də ictimai hadisələrə subyektiv amillərin təsirini nəzərə almağı tələb edir. Buna görə də fəlsəfədə bu problemi sosiomədəni, kulturoloji, mədəni-antropoloji, psixoloji, sosioloji konsepsiyaları cəlb etmədən araşdırmaq mümkün deyil. Dissertasiya işində qarşıda qoyulmuş məqsədə nail olmaq üçün həm ölkəmizin, həm də xarici ölkələrin elmi fikrinin nailiyyətlərindən istifadə edilmişdir.

Təhsil və tərbiyənin mahiyyətinin araşdırılmasının kökləri qədim dövrlərə gedib çıxsa da, təhsilə sosiomədəni yanaşma yalnız XVIII əsrdə, K.A. Helvetsinin "İnsan, onun əqli qabiliyyətləri və tərbiyəsi haqqında" və İ.Kantın "Antropologiya" adlı əsərində qeydə alınmışdır.

Tədqiqatın problemlər sahəsinin işlənməsi üçün təməl postneoklassik paradiqmanın nəzərdən keçirilməsinə həsr edilmiş əsərlər oldu (V.S.Styopin, Ə.F.Abbasov, M.A.Rozov). Bu əsərlərdə sosial elmdə aparılan tədqiqatlar üçün mühüm olan çox qiymətli tövsiyələr verilmiş, postneoklassik paradiqmanın bu günün sosiomədəni və ekoloji reallıqlarına, ictimai problemlərin real və konstruktiv həlli məqsədinə daha uyğun gəldiyi əsaslandırılmışdır. Qeyd edilən alimlərin araşdırmalarından elmi zəkanın əxlaqla birləşdirilməsinin mümkünlüyü, elmi-texniki tərəqqinin humanistləşdirilməsi, dünyanın yeni, qeyri-səlis mənzərəsi haqqında fəlsəfi dünyagörüşü nəticələr əldə edildi və bu gün postneoklassik paradiqma Azərbaycanda aparılan fəlsəfi diskussiyaların əsas mövzularından biridir.

Təhsilə sosiomədəni yanaşmanın ayrı-ayrı elementləri E. Dürkheym, M. Malinovski, A.Kreber, K.Klakxon, P.Berger, N. Lukman, T.Parsons, A.R. Redklif-Braun, B.O.Mayer, L.A. Qaman və b. tərəfindən işlənmişdir. Bu əsərlərdən bizi maraqlandıran bir çox məlumatlar əldə edə bilərik. Qeyd edilən müəlliflərin əsərlərində təhsil reallığının rəngarəngliyi, onun müəyyən cəmiyyətin sosiomədəni inkişaf spesifikasından asılılığı problemləri öz əksini tapmışdır. Müəlliflər əsaslandırırlar ki, sosial hadisələrin təhlilinin konseptual modeli mədəniyyət, sosial sistem və şəxsiyyət fenomenlərini bir-biri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirməyi tələb edir. Bu mənada qeyd edilən alimlərin mövqeyi dissertasiya işində qaldırılan məsələlərin bir çoxunun həlli spesifikasını şərtləndirmişdir. Onların əsərlərində inkişaf etdirilən mədəni plüralizm insanın təhsil varlığını onun mədəni varlığının

bir hissəsi kimi, özündə konkret şəraitin səciyyəsini daşıyan tarixi hadisə kimi nəzərdən keçirməyə imkan vermişdir.

Təhsilin ideyasına, təhsilin bu və ya digər sosial orqanizmin konkret tarixi-mədəni xüsusiyyətləri ilə qarşılıqlı əlaqələrinin fəlsəfi dərkinə M.Haydeggerin, K.Yaspersin və M.Horkhaymerin, müasir dövrdə isə S.Xəlilovun, A.P.Oqurtsovun, V.V.Platonovun, O.V.Arxipovanın əsərlərində toxunulur.

Təhsil sisteminin sosiomədəni amillərə qarşı həssaslığı L.N. Koqanın, V.İ.Panarinin, Y.V.Yakovetsin əsərlərində önə çəkilir. Təhsilə dəyər kimi yanaşma M.M.Baxtin və V.S.Biblerin mədəniyyətlərin dialoji konsepsiyasının əsasında durur. Sonralar qeyd edilən müəlliflərin konsepsiyası çərçivəsində təhsilin mədəni variativliyi haqqında əsərlər meydana gəlir (A.Y.Qureviç, İ.S.Kon, Y.M. Lotman, V.S.Styopin, A.Y.Fliyer, V.A.Slastenin, İ.F.İsayev, Y.M. Şiyanov, A.A.Ovsyannikov və b). Son illər işlənən zəruri müxtəliflik prinsipi də təhsilin öyrənilməsində böyük rol oynayır. Bu prinsipə görə, tarixi prosesin müxtəlifliyinin mütləqləşdirilməsi (O. Şpenqler) yolverilməzdir. Bu fikri təhsilə şamil etdikdə, belə nəticə alınır ki, təhsilin mütərəqqi inkişafı, onun dinamikliyi birbaşa təhsil sisteminin daxili rəngarəngliyi ilə bağlıdır. Qeyd edilən prinsipi rəhbər tutan B.S.Qerşunskinin tədqiqatlarında təhsilin milli prioritetlərə və ənənəvi dəyərlərə söykənən mənəvi əsaslarının müəyyənləşdirilməsinə cəhd edilir. Müəllif belə qənaətə gəlir ki, Qərb dəyərləri Rusiya mədəniyyəti üçün qəbuledilməzdir. Adları çəkilən müəlliflərin inkişaf etdirdikləri təhsilin mədəni variativliyi prinsipi təhsilə yanaşmaların da müxtəlif və hər birinin dəyərli əvəzsiz olduğunu, buna görə də təhsilə yanaşmada epistemoloji monizmdən epistemoloji plüralizmə keçid edərək onun sosiomədəni kontekstdə öyrənməli olduğunu göstərir. Bu mənada təhsil ilə şəxsiyyəti dialektik vəhdətdə nəzərdən keçirən mədəni-antropoloji və psixoloji yanaşma maraq kəsb edir. Təhsilin bu nöqteyi-nəzərlərdən öyrənilməsinə İ.A.Biriçin, V.İ.Slobodçikovun, Y.İ.İsayevin, N.P.Pişşulinin, Y.A.Oqorodnikovun əsərləri həsr edilmişdir. Onların araşdırmaları insan haqqında elmlərdən biri olan təhsil nəzəriyyəsini xeyli zənginləşdirmək imkanı verir. Təhsilə bu prizmalardan yanaşdıqda, insanın davranışını intellektual xassələrindən çox, psixoloji xassələri, onun mentaliteti vasitəsilə tənzimləmək imkanı yaranır. Belə olduqda, təhsil sahəsində qəbul olunmuş hər bir düzgün qərar tək qanunvericinin deyil, hamının iştirak etdiyi yaradıcı bir proses kimi göz önünə gəlir. Müəlliflər əsaslandırırlar ki, təhsil kommunikasiyasının bütün iştirakçılarını birləşdirən, bir araya gətirən də bu sosiomədəni şəraitdə

formalaşmış təhsil obrazı əsasında yaranan təhsil etnosudur. Bu mənada dissertasiya mövzusunun araşdırılmasında son zamanlar təhsil mentalitetinə toxunan əsərlərin də rolu böyükdür. Onların arasında N.N.Qubanovun, N.İ.Qubanovun, D.V. Polejayevin, P.İ. Rısakovanın tədqiqatlarını göstərmək olar. Müəlliflər mentallıq məsələlərini nəzərdən keçirir, mentalitet fenomeninin antropogen böhranların aradan qaldırılmasında rolunu araşdırır, mentallığın ictimai varlığın və milli ruhun müxtəlif tərəfləri ilə, o cümlədən təhsil ilə əlaqələrini göstərir, təhsil mentalitetinin mahiyyəti və spesifikasını, təhsilin milli xarakterini nəzərdən keçirirlər.

Təhsil reallığı bir çox mənada müəyyən şərti məna daşıyan və qarşılıqlı təsirlərdə olan subyektlərin dəyərlər sistemindən asılı olan rəmzi sistem olduğundan, təhsil sferasında semiotika ideyaları da inkişaf etdirilir. Təhsil sferasında semiotika ideyalarından istifadə edən tədqiqatçılar arasında S.A. Smirnovun, O.F.Brıksinanın, A.A.Veryayevin, Y.M.Kurolenkonun, İ.A. Mezentsevanın və b. adlarını göstərmək olar. Təhsilin bu qatının araşdırılması onlara maraqlı nəticələr əldə etməyə imkan vermişdir.

Epistemoloji plüralizm çərçivəsində təhsilə institusional yanaşma da inkişaf etdirilir.Təhsilə institusional yanaşmanı tətbiq edən N.Y.Vasilenko diqqəti ona çəkir ki,təhsil ideyaları sosial məqsədlərə nail olmanın yeganə vasitəsi deyil.Burada müxtəlif amillər, o cümlədən, əxlaq da böyük rol oynayır. Bir-biri ilə qarşılıqlı təsirlərdə olan bu amillər bir-birini tamamlayır, bir-birinin səmərəliliyini yüksəldir və ya zəiflədir. Təhsil ideyalarına konkretlilik və müəyyənlilik vermək üçün bu amillərin hamısı nəzərə alınmalıdır. Dissertasiyada təhsil bir-biri ilə qarşılıqlı bağlı olan və hər birinin refleksiv olaraq digərinə proyeksiya edildiyi sistem kimi nəzərdən keçirilir və əsaslandırılır ki, məhz institusional metodun çərçivəsində müasir şəraitdə təhsilin səmərəliliyinin şərtləri və amillərini ortaya çıxarmaq mümkün olur. O, bütövlükdə təhsil sisteminin transformasiyası, müxtəlif hissələrinin sinxron olaraq bir istiqamətdə təkmilləşdirilməsi zərurətinə vurğu edir. Bu transformasiyanın şərtini isə təhsilə bir tam kimi yanaşma təşkil edir. Bu yanaşmaya əsaslanaraq biz təhsili təhsil ideyaları, təhsil proqramları, dövlət standartları, təhsil idarələri və idarəetmə orqanlarından ibarət olan açıq, çevik və tam sistem olduğunu əsaslandırmağa cəhd etdik.

Postindustrial cəmiyyətin yaranmasının retrospektiv təhlili ilk növbədə postindustrializm nəzəriyyəsinə söykənir. Postindustrial cəmiyyət konsepsiyasına ən çox töhfə verənlər arasında D.Bellin, Z.Bjezinskinin, E.Tofflerin, C.Helbreytin, A.Turenin,E.Masudanın, P.Drakerin, F.Mahlupun, V.L. İnozemtsevin adlarını çəkmək olar. Postindustrial cəmiyyətin

informasiya-kommunikasiya tərkib elementi vasitəsilə təhlili M.Kastelsin, C. Neysbitin, J.Furastyenin, K.Errounun, G.Krückenin, Y.Y.Juravlyovun, D.V.İvanovun, A.Torkunovun əsərlərində araşdılmışdır. Postindustrial cəmiyyətdə informasiya və biliyin daşıyıcısı olan insan və bütövlükdə intellektual resursların əsas məhsuldar qüvvəyə çevrilməsi intellektual kapital konsepsiyasının işlənməsinə təkan vermişdir. Bu problemin başlıca müddəaları L.Edvinson və K.E. Sveybin, R.Lukasın, P. Romerin, T.Şultsun və H. Bekkerin əsərlərində araşdırılır. Daha sonra onların ideyaları O. Toffler, K.Mertins, P.Romer, C.Helbreyt, M.Kastels, F.Fukuyama tərəfindən zənginləşdirilir. Azərbaycanda bu problemin ayrı-ayrı aspektlərini araşdıran alimlərdən Ə.F.Abbasovu, Ş.Muradovu, T.Quliyevi, A.İsmayılzadəni qeyd etmək lazımdır. Qeyd edilən alimlərimizin əldə etdikləri elmi nəticələr çox maraqlı və aktualdır. Bununla belə, Azərbaycanın intellektual resurslarını strateji idarəetmə obyekti kimi nəzərdən keçirən əsərlərə hələ ki rast gəlinmir.

Müxtəlif mədəniyyət və ənənələrin qarşılıqlı asılılığı, təhsil modellərinin açıqlığının sosial əhəmiyyətinin artdığı şəraitdə təhsil problemləri üzrə müasir elmi işləmələrdə qloballaşma, qlobal amillər mövzusu xüsusi əhəmiyyət kəsb edir. Qloballaşmanın məntiqi-metodoloji aspektlərinin öyrənilməsində İ.Vallerstayn, U.Bek, E. Toffler, S.Hantinqton, M.Delyagin, A.Panarin, V.V.Juravlyov, K.X. Delokarov, V.Kollontay, V.İnozemtsev və b.-nın böyük xidmətləri olmuşdur. Bu fenomenin sosial mədəni aspektləri Z.Bauman, Q. Diligenski, V.Kutıryovun əsərlərində işıqlandırılmışdır.Azərbaycan müəllifləri arasında qloballaşmanın məhz sosial-fəlsəfi problemlərinin öyrənilməsi ilə R.Ə.Mehdiyev, Ə.F.Abbasov, İ.R.Məmmədzadə, S.S.Xəlilov, İ.Ə.Rüstəmov, A.M.Şükürov və başqaları məşğul olmuşlar. Onlar qloballaşma, onun səviyyəsi, xüsusiyyətləri, sosial-iqtisadi, mədəni və siyasi sahələrdə təzahürlərini araşdırmış, Azərbaycanın qloballaşma dövründə dünya birliyinə inteqrasiyası proseslərinin ictimai-siyasi təhlilini aparmışlar.

Təhsilin qloballaşma şəraitində sosial təyini və rolunda, vəzifə və ideallarında baş vermiş dəyişikliklər sahəsində əsaslı tədqiqatlar aparan alimlər arasında M.C.Mərdanovu, A.O.Mehrabovu, V.S.Styopini, V.İ.Panarini, İ.P. Savitskini, F.T.Mixaylovu, E.N. Qusinskiyi, B.S.Qerşunskini, Y.İ.Turçaninovanı göstərmək olar. Təhsilin qloballaşması və beynəlmiləşməsi Azərbaycan müəlliflərindən A.Əlizadənin, İ.Əhmədovun, M.M.Cəmilovun, bu kontekstdə Azərbaycanın təhsil sistemində islahatlar İ.B.İsgəndərov, Z.İ.Qaralov, M.C.Mahmudov, M.C.Mərdanov, İ.T.Pirməmmədov,

R.Ağamalıyev, T.İ.Talıbov, F.D.Qədirov və S.A.Mənsimov, N.Yusifov və b.-nın əsərlərində təhlil edilir. Xarici ölkələrin müəlliflərindən bu istiqamətdə araşdırmalar aparmış müəlliflərdən P.Skott, H.Hauq, M.Kviek, K. Kerri, M. Van der Venden, H.Pehar, C.Nayt, B.Vexter, D.Bliqt, O.V.Saqinova,Y.M.Qorbunov və M.V.Larionov, A.L.Arefyev, N.M.Dmitriyev, L.A.Verbitskaya, M.M.Akuliç, O. Klimanoviç və başqalarının adlarını çəkmək olar.

Sosiomədəni transformasiyalar dövründə təhsilin modernləşdirilməsi, təhsil paradiqmasına yenidən baxılması ilə əlaqədar təhsil prosesi məsələlərini kompleks şəkildə araşdıran təhsil fəlsəfəsi kimi yeni fəlsəfi bilik sahəsi meydana gəlmişdir. Onun problemlər dairəsi R.Ə.Mehdiyev, A.M.Nəzərov, Ş.Q.Əsgərov, R.L.Hüseynzadə, İ.Ə.Həbibbəyli, Rusiya müəlliflərindən B.S.Qerşunskinin, K.X.Delokarovun, B.M.Mejuyevin, A.D.Ursulun əsərlərində öz əksini tapmışdır.

Son onilliklər təhsilin humanitarlaşdırılması və humanistləşdirilməsinə, təlim alanların təhsil prosesinin subyekti kimi öz fəallığının formalaşdırılması məsələsinə çox ciddi diqqət yetirilmişdir. A.Peççei, M.Şeler, A.Şveytser, A.Maslou, E.Fromm kimi tədqiqatçılar müasir mədəniyyətin aksioloji problemlərinə həsr edilmiş və humanizmin mahiyyəti, onun ali məktəbdə tədris edilən ictimai-humanitar elmlərdə öz əksini tapması barədə maraqlı fikirlər irəli sürmüşlər. Bu alimlər dünyaya yeni baxışlar, dəyərlər (məsuliyyət, tolerantlıq, səriştəlilik, təhsillilik, peşəkarlıq və s.) üzərində qurulan təhsil modellərini yaratmağa çalışmışlar.Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması problemləri, təhsil ənənələri Ə.F.Abbasov, İ.R.Məmmədzadə, H.H.Əhmədov, F.İ. Əliyev, Ə.A.Ağayev, R.L.Hüseynzadə, N.S.Rozov, V.A.Sadovniç, A.Y.Fliyer, P.Q.Şedrovitskin və başqalarının əsərlərində təhlil olunur. Müəlliflər humanitar biliklərə malik olmayan, dar düşüncəli mütəxəssislər yetişdirən ali təhsil praktikasını ciddi tənqid etmiş və yeni təhsil konsepsiyasının əsasına qoyulmuş fəlsəfi-metodoloji ideyaların işlənib-hazırlanması üzərində çalışmışlar.

Dissertasiya işində işıqlandırılan problemə multikultural təhsil haqqında əsərlərin birbaşa aidiyyəti vardır. Təhsil sferasında ölkəmizin normativ-hüquqi sənədləri göstərir ki, təhsil xalqımızın mədəni dəyərlərinin qorunmasına və inkişafına xidmət etməlidir. Eyni zamanda qeyd olunur ki, vətəndaşlarda milli birliyi və identikliyi şərtləndirən azərbaycançılıq formalaşdırılmalıdır. Azərbaycançılıq ideyası bu gün, ilk növbədə, etnik-dini tolerantlığın və milli həmrəyliyin başlıca təminatçısı kimi çıxış edir. Ərazisində yaşayan xalqların vətəni olan Azərbaycanda reallaşdırılmasına

səy göstərilən hər hansı pozitiv ideya təkcə azərbaycanlıların deyil, bütün etnosların maraqlarını özündə tam ehtiva edir. Yəni, dövlətin irəli sürdüyü və rəhbər tutduğu ideya etnik mənsubiyyətindən, dinindən asılı olmayaraq ölkənin bütün əhalisinin maraqlarını önə çəkir. Deyilənlərlə əlaqədar multikultural təhsil məsələləri aktuallaşır. Qeyd etmək lazımdır ki, multikultural təhsil bir çox polietnik dövlətlərin pedaqoji ictimaiyyəti tərəfindən əhəmiyyətli bilinmiş, o cümlədən, Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Bu mənada V.Hinz-Rommel, D.B.Pop-Devis, H.L.Koleman, V.Minq Lu, R.L.Toporek, F.Popp, H. Grosch, V.R.Leenen, A.Thomas və b. əsərlərini qeyd etmək olar. Həmin əsərlərdə qloballaşmanın multikultural təhsilin həyata keçirilməsinə təsirinin bəzi aspektləri araşdırılır, insan kapitalının əsas resursunun multimədəni təhsil olduğu, müasir polietnik cəmiyyətlərin genetik matrisasının yalnız multikultural tələblərin həyata keçirilməsi əsasında mümkün olduğu əsaslandırılır.

Müasir təhsilin əsas vəzifələrindən biri qeyri-standart düşüncəli, kreativ insanın formalaşdırılmasıdırsa, bu məsələnin həlli bilavasitə innovasiya mədəniyyətinin formalaşdırılması sayəsində mümkündür. Buna görə də elmi dairələrdə innovasiya mədəniyyətinə maraq artıb. Alimlər Ə.Ağayev, N. Qəhrəmanov, A.Musayev innovasiya mədəniyyətinin formalaşdırılması problemini önə çəkirlər, çünki məhz innovasiya mədəniyyəti Azərbaycanda innovasiya cəmiyyətinin inkişafına səbəb olacaqdır. İnnovasiya mədəniyyətinin ümumi məsələləri Rusiya alimlərindən N.D.Vasilenkonun, Y.A.Karpovanın, B.L.Lisinin, L. A.Xolodkovanın, A.M.Nikolayevin, F.T.Mixaylovun, S.A.Melenkinanın, V.İ. Slobodçikovun, Y.V. Qromıkonun əsərlərində araşdırılır. Qeyd edilən alimlər innovasiya mədəniyyətini təhsil sisteminin inkişaf səviyyəsini əks etdirən amil kimi nəzərdən keçirirlər. Belə ki, L.A.Xolodkova innovasiya mədəniyyətinin inkişaf determinantı kimi onun məqsəd, vəzifələri, formalaşdırılması metod və mexanizmlərini təmin edən təhsili göstərir. Son illər ali məktəblərin innovativ fəaliyyətinə maraq da artmaqdadır. Burada Y.A.Orlovanın, O.X.Miroşnikovanın, P.N.Fedosovanın, Y.İ.Petrovanın, T.Müller-Protmanın, N. Dörrün, H. Ernstin, H.Korstenin, J.Littkemannın, N. Tomun əsərləri maraq doğurur. Qeyd edilən araşdırmalar adət və yeniliklərə dəyərlər əsasında münasibəti formalaşdıran innovasiya mədəniyyətində təhsil-tərbiyə komponentinin yerini müəyyən etmək üçün qiymətli töhfədir.

İnformasiya cəmiyyətinin qərarlaşması ona müvafiq olan informasiya mədəniyyəti haqqında da danışmağa əsas verir. İnformasiya mədəniyyəti humanitar elm sahələrinin nümayəndələrinin əsas diqqət mərkəzində, hələ

ki, olmasa da, onu informasiya texnologiyaları sahəsində müasir mütəxəssisin peşə xarakteristikası kimi nəzərdən keçirən əsərlərə rast gəlmək mümkündür. Bu mənada R.Əliquliyev, R.Mahmudova, T.Stounyer, L.V.Nesterova, N.İ.Gendina, E.P.Semenyuk və b.-nın əsərlərini qeyd etmək olar. Lakin "informasiya mədəniyyəti" anlayışı peşə xarakteristikasından xeyli genişdir, onun formalaşdırılması problemi isə müasir informasiya cəmiyyətinin hər bir üzvü üçün aktualdır. Bununla belə qeyd edilən mütəxəssislərin araşdırmaları dissertasiya işində bu hadisənin fəlsəfi refleksiyası üçün, təhsilin onun formalaşdırılması rolunun araşdırılması üçün zəmin yaratmışdır.

BMT, YUNESCO, İƏİT-in cəmiyyətin inkişaf tendensiyalarının, təhsilə yeni baxışların təhlilinə həsr edilmiş materiallarının araşdırılmasına da xüsusi diqqət yetirilmişdir.

Lakin dissertasiya mövzusu ilə bağlı ölkəmizin, Rusiya və Qərb tədqiqatçılarının ərsəyə gətirdiyi əsərlərin nəzərdən keçirilməsi bir daha onu təsdiqləyir ki, təhsil sahəsində müxtəlif planlı tədqiqatların aparılmasına baxmayaraq, bir sıra ciddi məsələlər ayrıca təhlil predmeti kimi işlənməmişdir. Bunlara ilk növbədə Avropada təhsil sahəsində gedən inteqrasiya kontekstində Azərbaycanda təhsil islahatlarının sosiomədəni aspektləri və ölkəmizin təhsil ənənələrinin qorunub saxlanması problemi aiddir. Müəlliflərin əksəriyyəti Avropaya inteqrasiya və təhsil islahatları problemini ayrı-ayrılıqda araşdırır. Bu problemlərin müştərək mahiyyəti və nəticələrinə dair mənbələr yox dərəcəsindədir. Bundan başqa, problem əsasən pedaqoji ədəbiyyatda araşdırılır, fəlsəfi-kulturoloji müstəvidə isə mövzu, hələ ki işlənməmişdir. Avropa təhsil məkanına inteqrasiyadan faydalanmaqla cəmiyyətimizin fəaliyyətinin səmərəliliyini artırmaq tələbatı ilə mühüm nəzəri və praktiki əhəmiyyətə malik olan təhsil fenomenini araşdıran fəlsəfi tədqiqatların, konseptual, metodoloji və aksioloji yanaşmaların yoxluğu arasında real ziddiyyət yaranmışdır. Təhsil problemləri filosoflar tərəfindən, demək olar ki, unudulmuşdur: bunlar təhsil işçilərinin ixtiyarına buraxılmışdır. Nəticədə müasir təhsil sistemlərində açıq-aşkar təhsilin əzəli ideyası, təbiəti, idealları, dəyərləri ilə uzlaşmayan birtərəflilik müşahidə olunur.S.Xəlilovun qeyd etdiyi kimi,"təhsil ideyası, onun mahiyyəti, məqsədi və makrostrukturu sahəsində mütəxəssislər ... yox dərəcəsindədir"[1]. Təhsil sahəsində biliklərin konseptuallaşdırılması probleminin hələ də davam etməsini təhsildə dramativliyin təzahürlərindən biri kimi nəzərən

[1] Xəlilov S.S.Təhsil, təlim, tərbiyə. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2005. - 650 s.

keçirmək olar. Təhsil sahəsində həm beynəlxalq, həm də milli səviyyədə qoyulan məqsədlərə nail olmaq üçün bu mürəkkəb və çoxşaxəli problemi konseptuallaşdıracaq fəlsəfə, psixologiya, sosiologiya, təhsil fəlsəfəsinin ən yeni nailiyyətləri kontekstində kompleks fəlsəfi, sosiomədəni tədqiqatlara ehtiyac yaranmışdır.

Bu mənada dissertasiya işi Avropa təhsil məkanına inteqrasiya kontekstində təhsilin sosiomədəni müstəvidə araşdırılmasına göstərilən ilk cəhdir.

**Tədqiqatın obyektini** sosial reallığın mədəni hadisəsi kimi təhsil, **predmetini** isə Avropa təhsil məkanına inteqrasiya şəraitində təhsil islahatlarının sosiomədəni problemləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Araşdırmanın başlıca məqsədi müasir təhsildə cərəyan edən qloballaşma,modernləşmə və Avropaya inteqrasiya prosesləri şəraitində təhsilin sosiomədəni problemlərinin milli maraqlar müstəvisində kompleks təhlili təşkil edir.

Qeyd olunan məqsədə nail olmaq üçün müəllif tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- industrial, postindustrial, informasiya cəmiyyətlərinin nəzəri konsepsiyalarının təhlili və müqayisəsi əsasında "bilik cəmiyyəti" nin səciyyəvi cəhətlərinin müəyyən edilməsi;
- intellektual kapitalın Azərbaycan dövlətinin strateji idarəetmə obyektinə çevrilməsi zərurətinin əsaslandırılması;
- postindustrial cəmiyyətdə təhsilə müxtəlif metodların sintezi olan sosiomədəni yanaşmanın aktuallığının, məqsədə müvafiqliyinin və evristik potensialının əsaslandırılması və bu kontekstdə təhsilin cəmiyyətin mədəniyyətin ayrılmaz hissəsi kimi nəzərdən keçirilməsi, onun mədəniyyətin digər elementləri ilə qarşılıqlı üzvi əlaqələrinin üzə çıxarılması;
- təhsilin fəaliyyətində təhsil ideyalarının yeri və rolunun təhlil edilməsi, onların təhsilin, təhsil mentalitetinin təkamülündə əhəmiyyətinin əsaslandırılması;
- müasir dünyada cərəyan edən qloballaşma və modernləşmə proseslərinin sosial-fəlsəfi əsaslarının öyrənilməsi və bu kontekstdə təhsilin qloballaşması və beynəlmiləşməsinin təhlil edilməsi;
- müasir dövr üçün Azərbaycanın yeni təhsil paradiqmasının müəyyənləşdirilməsi;
- ali təhsil müəssisələrinin innovasiya strategiyalarının əsas elementlərinin aşkara çıxarılması, onlara mane olan amillərin müəyyən edilməsi;
- informasiya mədəniyyətinin qloballaşma proseslərinin mühüm tərkib hissəsi kimi nəzərdən keçirilməsi;

- Avropa təhsil məkanına inteqrasiyası şəraitində Azərbaycan təhsilinin əsas inkişaf istiqamətlərinin əsaslandırılması üçün təhsilə sosiomədəni yanaşmanın imkanlarının ortaya çıxarılması;

- Boloniya prosesinin müddəalarının həyata keçirilməsi kontekstində Azərbaycan mədəniyyətinin potensialından qaynaqlanan təhsilin milli-mədəni xüsusiyyətlərinin təhlil edilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** təhsilə sosiomədəni yanaşma təşkil edir ki, onun da mühüm müddəalarından biri təhsilin sosiomədəni plüralizmlə səciyyələn hadisə kimi nəzərdən keçirilməsidir. Müasir şəraitdə təhsilin rəngarəngliyini işıqlandırmaq üçün postneoklassik fəlsəfənin başlıca müddəaları, ideya və prinsipləri rəhbər tutulmuşdur.Təhsilin sosiomədəni və mədəni-tarixi məzmununu əsaslandırmaq üçün dialektik təhlil, tarixi-konkretlik, induksiya və deduksiya sistemli yanaşma metodlarından, habelə, kulturoloji, aksioloji, müqayisəli-tarixi təhlil üsullarından istifadə edilmişdir. Sistemli təhlil təhsilin müasir dünyada yerini müəyyənləşdirməyə, təhsil sisteminin yaşadığı çətinliklərin səbəblərini və gələcəkdə bu çətinliklərdən çıxış yollarını, vasitələrini üzə çıxarmağa imkan verdi. Dialektik metod araşdırılan obyektin inkişaf qanunauyğunluqlarını, daxili dinamikasını aşkara çıxarmağa, sosiomədəni mühitdə baş verən dəyişikliklərin ona təsirinin xarakterini müəyyənləşdirməyə imkan vermişdir.Təhsil islahatlarının sosiomədəni problemlərinin həlli kulturoloji və aksioloji təhlil əsasında mümkün olmuşdur. Müqayisəli-tarixi metod müxtəlif dövrlərdə təhsil idealının, təhsil sistemində islahatlara yanaşmaların, islahatların perspektivlərinin qiymətləndirilməsi zamanı səmərəli olmuşdur.

Dissertasiyanın təhlil predmetinin spesifikliyi, fənlərarası xarakteri tədqiqat prosesində müxtəlif humanitar elmlərin nəzəri yanaşma və konsepsiyalarına müraciət etmək imkanı verdi.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu, Azərbaycan Respublikası Prezidentinin Sərəncamları,"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası, Avropa təhsilində gedən inteqrasiya proseslərinə həsr edilmiş elmi konfrans və seminarların materialları, Boloniya prosesinin analitik materialları təşkil edir. Dissertasiya mövzusuna dair dövri nəşrlərdə də çoxlu sayda informasiya dərc olunduğundan dövri mətbuat və İnternet saytlarının materiallarından da istifadə edilmişdir. Tədqiqata cəlb olunmuş sənəd və materialların böyük əksəriyyəti rus, ingilis və alman dillərindədir.

**Dissertasiyanın elmi yeniliyi** ilk növbədə tədqiqat predmeti kimi seçilmiş mövzu, qarşıya qoyulan məqsəd və araşdırılan məsələlərdən irəli gəlir. Dissertasiya işində ilk dəfə olaraq:

- postindustrial cəmiyyətdə bilik və informasiyanın rolu araşdırılmış, bu kontekstdə informasiya mədəniyyətinin formalaşdırılması zərurəti əsaslandırılmış, informasiya mədəniyyətinin inkişafını şərtləndirən amillər təhlil edilmişdir;
- ÜDM əsasında verilən iqtisadi qərarların problematikliyi əsaslandırılmış, insan kapitalından səmərəli istifadə metodlarının işlənməsi məsələsi qaldırılmışdır;
- postindustrial cəmiyyət şəraitində təhsil sferasında baş verən dəyişikliklərin xüsusiyyətləri hərtərəfli təhlil edilmiş və göstərilmişdir ki, müasir təhsil nəzəriyyəsi və praktikası çətinliklər dövrünü yaşayır və bu çətinliklərdən çıxış yolu, hər şeydən əlavə, təhsilin sosiomədəni amil olaraq konstruktiv potensialını açaraq sosiomədəni kontekstdə araşdırılmasındadır;
- təhsilin təhlilinə rəngarəng metodların epistemoloji sintezini nəzərdə tutan sosiomədəni yanaşma əsasında təhsilin daxili strukturu tədqiq edilmiş və müəyyənləşmişdir ki, təhsilin mahiyyəti mədəni-mənəvi yüklü və müvafiq mədəni dəyərlər sistemi ilə şərtlənən təhsil ideyalarında öz əksini tapır;
- təhsilin mədəniyyət sisteminə qatılma mexanizmi təhlil edilmiş və sivilizasiyaların plüralizmi ilə təhsilin təzahür formaları arasında əlaqənin mövcud olduğu sübuta yetirilmiş, habelə müəyyən edilmişdir ki, eyni sivilizasiyanın müxtəlif mədəni-tarixi şəraitlərdə müxtəlif təhsil formaları müşahidə olunur;
- təhsilin sosiomədəni mahiyyətinin təhsil mentaliteti ilə şərtləndiyi əsaslandırılmış və belə bir nəticə əldə edilmişdir ki, təhsil sistemində islahatlar zamanı təhsilin mənəvi-psixoloji determinantı olan təhsil mentalitetini nəzərə almaq məqsədəmüvafiqdir;
- Azərbaycan təhsilinin təkamülü təhlil edilmiş və sübut edilmişdir ki, öz mahiyyətinə və məzmununa görə o, Qərb sivilizasiyasına yaxındır və bu kontekstdə müasir Azərbaycanın təhsil sisteminin bəzi problemləri təhsil sferasında Qərb təhsil konsepsiyaları əsasında islahatlar aparmaq cəhdi ilə bağlıdır;
- Avropa təhsil məkanına inteqrasiya prosesində Azərbaycan xalqının milli-mədəni xüsusiyyətlərini qoruyub saxlamaq məqsədinə təhsilin humanitar paradiqmasının cavab verdiyi əsaslandırılmış, humanitar fənlərin tədrisinin təkmilləşdirilməsi yolları müəyyən edilmişdir;

- iqtisadi artım mənbələrinin önəmli problemlərdən olduğu müasir Azərbaycanda «beyinlərin axını»nı dayandırmaq üçün strateji çıxış yolları göstərilmişdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Bilik, informasiya və kreativliyin strateji resurs olduğu postindustrial cəmiyyət şəraitində iqtisadi rasionalizmin üstün mövqedə olması təhsili olduqca rəngarəng insan davranışı formalarından yeknəsək formaları istehsal edən mexanizm səviyyəsinə endirir. Praqmatik məsələlərin həlli üçün yararlı olan yüksək dərəcədə rasional təhsil insanın sosial yaradıcılığı, insanların sərbəst və ədalətli qarşılıqlı təsirləri üçün maneəyə çevrilmiş və dünya birliyinin ardıcıl inkişaf tendensiyalarına uyğun gəlmir. Bu baxımdan bu kimi münasibətlərin öyrənilməsi işin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə müsbət təsir edə bilər;

2. Təhsilin nüfuzunun zəifləməsi təsadüfi hal olmayıb təhsil gerçəkliyinin texnoloji modifikasiyaları nəticəsində yaranmış problemlərin təzahürüdür. Problemləri həll etmək üçün təhsilin yeni paradiqmasının işlənməsi tələb olunur ki, bu da yalnız təhsilin sosiomədəni konsepsiyası çərçivəsində mümkündür;

3. Çoxşaxəli hadisə olan təhsilin sosiomədəni təhlili yalnız bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini qarşılıqlı tamamlayan prinsip və metodların (kulturoloji, psixoloji və s.) epistemoloji sintezi əsasında aparıla bilər. Yalnız epistemoloji sintezi tətbiq etməklə təhsili sosial nizamı və stabilliyi dəstəkləməyə can atan cəmiyyətin bir təşkilati-idarəetmə vasitəsi kimi nəzərdən keçirmək mümkündür. Təhsil insanın sosiomədəni reallığa adaptasiyanın nəticəsi olaraq insanın özü kimi də rəngarəng və deməli, sosiomədəni xarakter əldə edir;

4. Təhsilin postindustrial gələcəyi təhsil dəyərlərinin bir-birinə yaxınlaşmasından, bir-birini qarşılıqlı tamamlamasından, bir-birini qarşılıqlı zənginləşdirməsindən, təhsildə rasional və irrasional başlanğıcların üzvi şəkildə əlaqələndirilməsindən asılı olacaqdır;

5. Təhsil paradiqmasının dəyişməsi və mövcud təhsil dəyərlərinin yenidən qiymətləndirilməsi təhsilin mahiyyətinə yeni baxış bucağının əsaslandırılmasını tələb edir. Bu baxış bucağının təməlinə sosiomədəni aspektlər qoyulmalıdır. Epistemoloji sintez olan sosiomədəni yanaşma təhsili təhsil ideyaları, təhsil proqramları, dövlət standartları, təhsil idarələri və idarəetmə orqanlarından ibarət olan açıq, çevik və tam sistem kimi nəzərdən keçirməyə imkan verir. Bu yanaşmada təhsilin mahiyyəti keyfiyyətində təhsilin sosiomədəni parametrlərini əks etdirən təhsil ideyaları çıxış edir;

6. Sosiomədəni fenomen olan təhsilin təkamülü sosiomədəni aləmin daxili inkişaf qanunları ilə şərtlənir. Bu səbəbdən mahiyyəti təhsil ideyalarında cəmləşən təhsil təhsil mentaliteti kimi sosial-mənəvi hadisə ilə bir tam təşkil edir. İctimai şüurun dərin qatında olan və təhsilin təkamül mərhələlərinin təhsil "arxetiplərini" özündə birləşdirən təhsil mentaliteti təhsilin mənəvi-psixoloji invariantı, "təhsilin ruhudur ";

7. Avropa təhsil məkanına inteqrasiya kontekstində Azərbaycanın təhsil sistemində aparılan islahatlar təkcə təhsil sahəsində dünya təcrübəsini deyil, həm də milli təhsilin təkamül spesifikasını nəzərə almağı tələb edir;

8. Azərbaycanın təhsil sisteminin səmərəliliyi Azərbaycan elminin ölkə təhsilinin təhsil mentalitetində öz əksini tapan mənəvi mahiyyətinin dərkinə qabil olmasından asılıdır. Azərbaycanın müasir təhsil problemlərini həll etmək, təhsilin nüfuzunu yüksəltmək üçün sadəcə bir təhsil stereotiplərini digərləri ilə əvəz etmək yox, təhsilin tamlığını, yəni onun zəngin milli mədəniyyət ilə vəhdətini bərpa etdirmək lazımdır.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri elmi-nəzəri və tətbiqi xarakter daşıyır. Tədqiqatın nəzəri əhəmiyyəti problemə yeni elmi-epistemoloji yanaşmada, mənbələrin və məlumatların yeniliyi ilə müəyyən edilir. Dissertasiyada əldə edilmiş müddəalardan Azərbaycanda təhsil problemlərinin tədqiqində faydalanmaq olar. Dissertasiya işi təhsil siyasəti, sosial fəlsəfə, mədəniyyətşünaslıq üzrə dərsliklərin, metodik vəsaitlərin hazırlanması üçün yeni materialdır.

**Dissertasiya işinin aprobasiyası.** Tədqiqat işi AMEA-nın Fəlsəfə İnstitutunun "Sosial fəlsəfə və ekoloji problemlər" şöbəsində yerinə yetirilmiş, ilkin müzakirədən keçmiş, müzakirənin nəticəsi kimi "Sosial fəlsəfə" ixtisası üzrə müdafiəyə məsləhət görülmüşdür.

Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki təklifləri müəllifin elmi seminarlarda, beynəlxalq və ümumrespublika elmi-praktiki konfranslarındakı çıxışlarında təqdim edilmişdir.

Dissertasiyanın əsas məzmunu müəllifin tədqiq edilən problem üzrə Azərbaycan Respublikasnın Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallarda nəşr edilmiş 80 məqalə və tezislərdə öz əksini tapmışdır. Tədqiqat mövzusu üzrə bir monoqrafiya və xarici ölkələrdə 10 elmi məqalə çap edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işinin strukturu qarşıya qoyulan məqsəd və vəzifələrə müvafiq olaraq müəyyən edilmişdir. Dissertasiya giriş hissədən, 12 paraqrafdan ibarət dörd fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elm-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın **“Postindustrial cəmiyyətdə intellektual kapitalın rolu”** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. **“Postindustrial sivilizasiyanın ümumi səciyyəsi”** adlı birinci yarımfəsil adından da göründüyü kimi, “postindustrial cəmiyyət” nəzəriyyə və konsepsiyalarının araşdırılmasına həsr edilmişdir. Postindustrial cəmiyyətin təşəkkül tarixinin təhlili Qərb sosioloqları və sosial filosoflarının (J.Furastye, M.Maklüen, C.Helbreyt, Z. Bjezinski, D.Bell, O.Toffler, A.Turen, Y.Masuda, F.Maxlup, T. Umesao və b.) əsərlərinin materialları əsasında aparılmışdır.

Postindustrial cəmiyyət konsepsiyasının ilk metodoloji əsasları ictimai istehsalı üç sektora (aqrar, sənaye və xidmətlər sektoru) ayıran və xidmətlər sektorunun üstünlük təşkil edəcəyini vurğulayan J.Furastye tərəfindən ifadə edilmişdir. Onun müddəaları XX əsrin 50-ci illərinin ortalarında cəmiyyətin mövcud durumuna müxtəlif yanaşma və baxışların sintezi üçün əsas oldu və postindustrial cəmiyyət nəzəriyyələrinin inkişafına təkan verdi.

Qeyd edilən tədqiqatçıların əsərlərində göstərilir ki, nə siyasi, nə ideoloji, nə də sosial fərqlər texnoloji tərəqqi qədər mühüm amil ola bilməz. Onların nəzəriyyə və konsepsiyalarında ictimai istehsalın texnoloji aspektlərinin sinfi struktur üzərində üstünlüyü prinsipi irəli sürüldü, istehsal proseslərinin yeni texnoloji aspektlərinin inkişafı ilə əlaqədar tarixin dövrləşdirilməsində dəyişikliklərin edilməsi ideyası əsaslandırıldı.

XX əsrin 60-cı illərində əsas diqqət texnika və texnologiyanın sosial sferaya təsiri məsələləri üzərində cəmləşir və həmin dövrdə D.Bell ilk mükəmməl bir “postindustrial cəmiyyət” nəzəriyyəsini təklif edir. Onun XX əsrin son rübünün bir çox futuroloji konsepsiyalarına təsir göstərmiş əsərlərində ictimai istehsal sektorlarının münasibətlərində, xidmətlər iqtisadiyyatının təşəkkülündə, məhsuldar qüvvələrin müstəqil elementi kimi biliyin formalaşmasındakı dəyişikliklər ətraflı təhlil edilir.

Həmin dövrün sonlarına yaxın texnoloji dəyişikliklərin cəmiyyətə təsiri humanitar sferada ən çox müzakirə edilən məsələlərdən birinə çevrilir. Bununla əlaqədar həmin hadisənin adlandırılması ilə bağlı məsələlər ortaya çıxır. Z.Bjezinski tərəfindən təklif olunmuş “texnotron era”dan

E.Toffler tərəfindən istifadə olunan “superindustrial cəmiyyət”ə qədər ən müxtəlif terminlər irəli sürülürdü. Yeni cəmiyyət postindustrial, informasiya, postburjua, postkapitalist, postsahibkar, postbazar, postənənəvi və hətta postsivilizasiya, posttarixi kimi də səciyyələndirildi.

“Postindustrial cəmiyyət” ideyalarının inkişafına Z.Bjezinskinin töhfəsi texnotron inqilabın cəmiyyətdəki ənənəvi əlaqələrin dağılmasına, bir çox ideoloji konseptlərin köhnəlməsinə səbəb olduğunu və müasir cəmiyyətin qlobal səviyyəyə keçid etdiyini, davranış stereotiplərinin və həyat tərzinin yeni ərazilərə ən qısa müddət ərzində ixracının mümkünlüyünü əsaslandırmasından ibarətdir.

E. Tofflerin dalğavari konsepsiyası “postindustrial cəmiyyət” nəzəriyyələrinin inkişafında xüsusi yer tutur. Bu konsepsiyanın əsas müddəaları tarixi prosesin unikal sxeminin təklif edildiyi “Üçüncü dalğa” əsərində irəli sürülmüşdür. Tofflerin metodologiyası tarixin təkamülünə dalğalar müstəvisində yanaşmadan ibarətdir. Qeyd edilir ki, E.Tofflerin dalğalar nəzəriyyəsi ilə K.Marksın formasiya nəzəriyyəsi arasında oxşarlıq olsa da, Marksın formasiyalarından fərqli olaraq dalğalar inqilab yox, təkamül nəticəsində baş verir. Tofflerə görə, tarixin hərəkətverici qüvvəsi texniki tərəqqidir və növbəti dalğa keyfiyyət sıçrayışı nəticəsində baş verib ictimai və şəxsi həyatın bütün tərəflərində köklü transformasiyalara səbəb olsa da, bu transformasiyalar təkamül xarakteri daşıyır.

1960-cı illərin əvvəllərində eyni zamanda F.Maxlup və T.Umesao tərəfindən “informasiya cəmiyyəti” termini irəli sürülür və Y. Masuda tərəfindən inkişaf etdirilir. Qeyd edilən müəlliflərin əsərlərində informasiya cəmiyyəti telekommunikasiya inqilabı nəticəsində yaranan, bilik və informasiyanın əhəmiyyətinin artması ilə bağlı olan informasiya sektorunun üstünlük təşkil etdiyi sosiumdur.

Postindustrial cəmiyyət postmodernizm konsepsiyası çərçivəsində də nəzərdən keçirilir. Lakin müəlliflər tərəfindən burada müasir cəmiyyətdə baş verən obyektiv dəyişikliklər deyil, əsasən sosial-psixoloji dəyişikliklər nəzərdən keçirilir.

Yarımfəslin mövzusu aspektində postindustrial cəmiyyətdə istehsal sahəsində baş verən dəyişikliklərin insanların dünyagörüşünə, motivlərinə necə proyeksiya etdiyi araşdırılarkən qeyd edilir ki, postindustrial cəmiyyətdə əmək prosesi cəmiyyətin üzvlərinin əksəriyyəti üçün yaradıcı fəaliyyətin bir növünə, özünürealizə vasitəsinə çevrilir. Bu baxımdan postindustrial cəmiyyətin postiqtisadi cəmiyyət kimi səciyyələndirilməsi məqsədəuyğun hesab edilir, çünki perspektivdə bu cəmiyyətdə insanlar üzərində

iqtisadiyyatın (maddi nemətlərin isehsalının) hökmranlığına son qoyulur, industrial cəmiyyətə xas olan bəzi özgələşmə formaları aradan qaldırılır, insan qabiliyyətlərinin inkişaf etdirilməsi həyat fəaliyyətinin əsas formasına çevrilir. Yeni əmək motivləri sisteminin formalaşması bilik və informasiyanın bir resurs olaraq yeri və rolunun dəyişməsi ilə bağlıdır.

**"Bilik və informasiya postindustrial cəmiyyətin intellektual kapitalının ən mühüm komponentləridir"** adlanan ikinci yarımfəsildə informasiya cəmiyyətinin sosial-iqtisadi aspektlərini araşdıran və kapital kimi, informasiyanın da yığılıb toplana bildiyini qeyd edən T.Stounyerin, P.Drakerin, E.Masudanın, M.Kastelsin və b.-nın nəzəri müddəalarına əsasən postindustrial cəmiyyətdə bilik və informasiyanın bir resurs olaraq yeri və rolu təhlil edilmiş, müasir mərhələdə milli informasiya resurslarının ən böyük potensial sərvət mənbəyinin olduğu əsaslandırılmışdır. Qeyd edilir ki, bilik və informasiyanın rolunun dəyişməsinin qanunauyğun nəticəsi postindustrial cəmiyyətdə bu gün üstünlük təşkil edən və onun dinamizmini təmin edən "intellektuallar sinfinin" formalaşmasıdır. Cəmiyyətin orta sinfinə daxil olan müasir "intellektuallar sinfi", birincisi, özünün yaradıcılıq nəticələrini maksimum tətbiq etməyə çalışır; ikincisi, yüksək maddi səviyyəyə nail olur, çünki əsas səylərini milli sərvətin çox hissəsini öz xeyrinə bölmək imkanı verən tətbiqi məsələlərin həllində cəmləşdirir; üçüncüsü, müəyyən dərəcədə şöhrətpərəstdirlər ki, bu da onların cəmiyyətdə xidmətlərinin tanınmasını, müəyyən vəzifələrə təyin edilməsini tələb edir. Məhz bu müddəada əksər postindustrial cəmiyyət konsepsiyalarının diqqətindən kənarda qalan bir fakt, yəni sosial münaqişənin əsaslarının dəyişdiyi üzə çıxarılır. Sosial münaqişələr və hakimiyyət münasibətləri tamamilə yeni xarakter alır. Artıq söhbət əməklə kapital deyil, iqtisadi və siyasi qərarları qəbul edən strukturlarla asılı iştiraka məcbur olanlar arasındakı münaqişədən gedir. Cəmiyyətin bir hissəsinin istismarın hüdudlarından kənara çıxması onun başqa hissəsində gərginlik hissinin artmasına səbəb olur. Digər tərəfdən,"intellektuallar sinfi" ictimai istehsal prosesləri üzərində real nəzarət əldə edir. Bu sinfin nümayəndələrinin fəaliyyət motivləri sistemində şəxsi varlanma həlledici rol oynamasa da, ictimai sərvətin çox hissəsi getdikcə onların xeyrinə bölüşdürülməyə başlayır. Bu arada yüksək texnologiyalar sahəsində qabiliyyətləri, təhsili olmayan cəmiyyət üzvləri maddi problemlərini həll etməyə cəhd göstərməkdə davam edirlər.

Ölkəmizə gəlincə, Azərbaycan cəmiyyətinin əhəmiyyətli problemlərindən biri vətəndaşların gəlirlərindəki fərqlərin böyük olmasıdır. Bütün ölkələrdə orta təbəqə deyilən bir sinif mövcuddur. Bu təbəqə dövlətin

onurğa sütunu, stabillik və sabitliyin qarantı sayılır və ölkələrdəki inkişaf da məhz bu təbəqənin sayəsində mümkün olur.

Akad. R.Ə.Mehdiyev haqlı olaraq yazır: “Cəmiyyətin varlı və yoxsul təbəqələri arasında aralıq mövqe tutan orta sinfin yaradılması üçün dövlətin məqsədyönlü səyləri olmadan modernləşdirmə mümkün deyildir. Müasir cəmiyyətdə bu sinif təkcə öz klassik qrupları - orta və kiçik sahibkarlar, ticarətçilər, sənətkarlar və başqaları ilə deyil, həm də iri müəssisələrin menecerləri, elmi-texniki və humanitar ziyalılarla təmsil edilmişdir...Orta sinif vətəndaş cəmiyyətinin əsas dayağı kimi müstəsna bir rol oynayır - o, həm sosial münaqişələri “söndürən” və qütbləşməni yumşaldan qüvvədir, həm siyasi sabitliyin əsas dayağıdır, həm də cəmiyyətin ən təhsilli, ümumi biliklərin və ixtisas biliklərinin, eləcə də ənənəvi normaların və dəyərlərin daşıyıcısı olan hissəsidir”[2]

İnkişaf etmiş olkələrdə orta sinfin xüsusi çəkisi 70%-ə çatır[3]. Əgər orta sinfin payı əhalinin yarıdan çoxunu təşkil edirsə, deməli, cəmiyyətdə gəlirlər kifayət qədər bərabər bölünür və əhalinin rifah halının yüksəldilməsi üçün də şərait yaranır.

Orta sinfin vətəndaş cəmiyyəti quruculuğu üçün çox mühüm amil olduğunu iddia edən AMEA Fəlsəfə, Sosiologiya və Hüquq (İndiki Fəlsəfə) İnstitutunun direktoru İlham Məmmədzadə Avropa və ya ABŞ-ın orta sinfinin həm maaşının yüksək olduğunu, həm təhsilinin keyfiyyətli olduğunu, həm səhiyyə, həm pensiya təminatının, bir sözlə, imkanların daha geniş olduğunu, deməli, onların təkcə özləri və ailələri haqqında deyil, cəmiyyət haqqında da düşünmək və qayğılanmaq imkanlarının oluğunu vurğulayır[4].

Azərbaycanda orta sinfin formalaşması, inkişafı və perspektivləri ilə bağlı bir sıra məsələləri tədqiq və təhlil etmiş, rayonlarda və Bakı şəhərində konturlar şəklində orta sinfin həyat davamlılığı potensialını müəyyən etmək və bu potensialın hansı subyektiv şərtlərdən asılı olaraq formalaşdığını və artmasını aydınlaşdırmaq məqsədini güdmüş R. Əzimova yazır: “Müasir Azərbaycanın dönmədən bazar iqtisadiyyatı yoluna ayaq qoyduğu və demokratik münasibətlərin prinsiplərini sosial-siyasi və ictimai həyat praktikasına tətbiq etməyə başladığı bir şəraitdə cəmiyyətin istehsal və yaradıcı həyatında müəyyənedici vasitə kimi orta sinfin rolu durmadan

[2] Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, “XXI - Yeni Nəşrlər Evi”, 2005, s. 67-68.
[3] Bayramova S.R., Qurbanova S.Ə. Gəlirlər və əmək haqqı siyasəti. Bakı - 2009, s.12.
[4] Məmmədzadə İ Orta sinif formalaşır// “Ayna” qəzeti. 01. 2014

artacaqdır... Şübhəsizdir ki, bu, Azərbaycanın sosioloqları üzərinə böyük məsuliyyət qoyur: yeniləşmiş cəmiyyətin istər sosial və istərsə də stratifikasion strukturunun öyrənilməsi sahəsində gərgin iş gözlənilir. Bu gün artıq sübut etməyə ehtiyac yoxdur ki, idarəetmə strukturlarının işinin səmərəliliyi cəmiyyətdə fəaliyyət göstərən spesifik xüsusiyyətləri haqqında səhih, maksimum dərəcədə verifikasiya olunmuş, həyati cəhətdən mühüm biliklərdən birbaşa asılıdır”.[5]

Azərbaycanda orta sinfin sərhədlərini genişləndirib buraya intellektualları da daxil etmək imkanları varmı? Düşünürük ki, ölkədə gedən islahatlar, demokratiya, azad bazar, antiinhisar qanunvericiliyi, bazarda şəffaf qaydalar, təhsil, səhiyyə sferasının maliyyələşdirilməsi şəraitində orta sinfin sərhədləri genişlənəcəkdir. Dövlət və cəmiyyət şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsinə yönəldilən mexanizmləri inkişaf etdirir, informasiyalaşma proseslərinə mümkün qədər geniş əhali təbəqələrinin cəlb olunması üçün şərait yaradır. İndiyədək, cəmiyyət dövlətin, neft gəlirlərinin hesabına güclənirdisə, bundan sonra orta sinfin güclənməsi cəmiyyətin dinamik inkişafına təkan verəcək.

İşdə qeyd edilir ki, informasiya cəmiyyəti konsepsiyasının yaradılması yolunda mövcud olan və alimləri vahid fikrə gəlməyə imkan verməyən ziddiyyətlərdən biri cəmiyyətdə sirkulyasiya edən informasiyanın miqdarı və keyfiyyətinin nisbəti problemidir, çünki məlum olur ki, informasiyanın kəmiyyətcə artması heç də həmişə onun keyfiyyətindən xəbər vermir. Burada məna, dəyərlilik, faydalılıq, praktiki əhəmiyyətlilik kimi keyfiyyət göstəriciləri də əhəmiyyətli rol oynayır. Cəmiyyətdə dəyərli informasiyadan başqa, dəyərsiz informasiya da olur. Amma postindustrial cəmiyyətdə informasiya axınının sürətlə artması nəticəsində belə bir illüziya yaranır ki, informasiyanın həcminin kəmiyyətcə artması öz-özünə “biliklər cəmiyyəti”nin yaranmasına gətirib çıxarır. Qeyd edilir ki, belə cəmiyyət hələ formalaşmayıb və bəşəriyyət ona doğru inkişaf etməkdədir.

Yarımfəsildə informasiya cəmiyyətinin problemləri və inkişaf perspektivlərinin aksioloji parametrlərdən kənarda təhlilinin birtərəfliliyi əsaslandırılır, biliyin aksioloji baxımdan ölçülməsi zərurəti vurğulanır. Burada məna, dəyərlilik, faydalılıq, praktiki əhəmiyyətlilik kimi keyfiyyət göstəriciləri də əhəmiyyətli rol oynayır. Bu baxımdan işdə biliklər iki mənada işlədilir. Birinci halda metodiki olaraq əldə edilən biliklər başa düşülür.

---

[5] Əzimova R.C. Keçid dövrü cəmiyyətinin sosial stratifikasiyasında orta sinif. Bakı «AVROPA» -2014, s. 95-96

Söhbət formal, sosial biliklərdən gedir ki, fərdlər bu bilikləri öz şəxsi təcrübəsindən qazana bilməzlər. İkinci halda spontan olaraq təcrübədə qazandığımız bilik və qabiliyyətlər (dini bilik, etik biliklər, poetik intuisiya və s.) başa düşülür ki, bu da qeyri-formal bilik olub şüurumuzun materialı, hissi, psixi və intellektual inkişafın baş verdiyi sosial təməldir. Q. Behmann haqlı olaraq yazır ki, elmi biliklərdən başqa, cəmiyyətin həyat müdrikliyi, dini bilik, poetik intuisiya kimi başqa bilik mənbələri də var.[6] Bu biliklər hissi, psixi və intellektual inkişafı həm tormozlandıra, həm də sürətləndirə bilər. Onlar ixtisasartırma kurslarında deyil, daha çox qeyri-iş saatlarında əldə edilir və iş zamanı, işdə daha da təkmilləşdirilir. Beləliklə də işdəki inkişafla şəxsi inkişaf arasında sinergetik effektə nail olunur. Bu mənada biliklər cəmiyyətindən o zaman söhbət aça biləcəyik ki, utilitar yönümlü bilikləri istehsal edən və sosial reallıqda baş verən keyfiyyət dəyişikliklərinə birtərəfli yanaşan cəmiyyət postindustrial cəmiyyətin sosiomədəni əsaslarını axtarıb taparaq bilikləri predmet bilikləri, instrumental texniki-elmi biliklər səviyyəsinə endirməyib onlarla mədəniyyətin komponenti kimi rəftar edəcək. “Biliklər cəmiyyəti” işdə metabilik cəmiyyəti kimi səciyyələndirilir. Metabilik həyat və mədəniyyətin həm ənənəvi, həm də müasir məzmununu özündə ehtiva edən sintetik bilikləri, sinergetik paradiqmaya uyğun olaraq dünyanın bütün mənimsəmə üsullarının inteqrasiyasını nəzərdə tutur. Beləliklə də bütün bilik sahələri cəmiyyətin mədəni resurslarının artırılmasında fəal iştirak edəcək.

Bilik və informasiyanın ən mühüm strateji resursa çevrilməsi dövlət qarşısında intellektual kapitalın idarə edilməsi ilə bağlı yeni vəzifələr qoyur. Bu problemin təhlilinə birinci fəslin **“Azərbaycanın intellektual kapitalı dövlətin strateji idarəetmə obyekti kimi”** adlı üçüncü yarımfəsli həsr edilmişdir. Bu altfəsildə insan kapitalı haqqında təsəvvürlərin inkişaf ardıcıllığını izləməyə və xüsusən də transformasiyalar dövründə insan kapitalının təyininin vacibliyini və mümkünlüyünü əsaslandırmağa cəhd edilir. Qeyd olunur ki, insan kapitalı insanın təhsil, intellektual, fiziki, sosial və innovasiya mədəniyyətinin sintezidir. Dünya iqtisadi fikir klassikləri V.Petti, A.Smit, C.St. Millin, habelə müasir nəzəriyyəçilər T.Şults, H.Bekker, R. Lukas, P.Romer, L.Edvinson və K.E.Sveybin elmi tədqiqatlarının və bazar təsərrüfatı təcrübəsinin ümumiləşdirilməsi əsasında insan kapitalının iqtisadi artıma təsiri təhlil edilərək belə qənaətə gəlinir ki, təhsil

---

[6] Бехманн Г. Общество знания - краткий обзор теоретических поисков // Вопросы философии. 2010. № 2. с. 113-126.

sistemində maliyyə kapitalı insan kapitalına çevrilir, yəni təhsilə çəkilən maliyyə xərcləri həm insanın özü, həm də bütövlükdə cəmiyyət üçün bir növ gəlirdir, ölkənin dünya iqtisadiyyatında rəqabətqabiliyyətliliyini şərtləndirən mühüm amildir. İnkişaf etmiş ölkələrdə təhsil səviyyəsi ilə ömür boyu əldə ediləcək gəlir arasında davamlı əlaqə qeydə alınmışdır. Bu ölkələrdə aparılan empirik tədqiqatlar insan kapitalının gəlirə müsbət təsir göstərməsi faktını təsdiqləyir. Onların bir-biri ilə sıx əlaqədə olduğu da müəyyən edilmişdir. Belə ki, insan kapitalının 10% artması gəlirin 9% artmasına səbəb olur.[7] Təhsil səviyyəsinə görə gəlirdə fərqlər nə qədər çox olsa, daha yaxşı təhsil almaq üçün həvəs də bir o qədər çox olar. İnsanların öz həmkarlarının biliklərindən ruhlandığını nəzərə almış olsaq, onda ümumi iqtisadi fayda daha yüksək olar. Bu xarici (kənar) təsirlər sayəsində insan kapitalından əldə olunan məcmu gəlir öz insan kapitalını artırmış insanların fərdi gəlirlərinin cəmindən artıq ola bilər. Daha yaxşı və davamlı təhsil sayəsində əldə olunan daha yüksək keyfiyyətli insan kapitalı əməyin daha da səmərəliləşdirilməsinə və intensivləşdirilməsinə, yeni ideya və metodların, innovasiyaların daha asanlıqla qavranılmasına səbəb olur. İnsan kapitalının səviyyəsinin yüksək olması əmək məhsuldarlığının artmasına gətirib çıxarır. Nə qədər çox mal istehsal olunsa, işçilərin təcrübəsi də bir o qədər çox olar, kəşflər və ixtiraların da sayı bir o qədər artar. İnsana investisiya qoyuluşu eksterial effekt verir, çünki onun biliklərin artması şəklində özünü büruzə verən nəticələrindən bütövlükdə cəmiyyət istifadə edir. Beləliklə, insan kapitalının iqtisadi artıma daha bir təsir yolu onun elmi tədqiqatlara və işləmələrə göstərdiyi təsiridir. Ölkə daha qabaqcıl istehsalatda nisbi üstünlüyə malikdirsə, onda mütəxəssislərin hesabına və praktikada təlim sayəsində həmin ölkə bu üstünlüyünü daha da inkişaf etdirəcəkdir. Bu, inkişaf etməkdə olan ölkələrdə artım templərinin aşağı olmasının səbəblərini müəyyən dərəcədə izah edir. İnsan kapitalı səviyyəsinin yüksək olduğu ölkələrdə elmi tədqiqatlara və işləmələrə çəkilən xərclər də çoxdur: insan kapitalı olmadan tədqiqatlar yoxdur, tədqiqatlar olmadan innovasiyalar yoxdur. İnsan kapitalının yüksək olmasının birbaşa effektlərindən sağlamlığın yaxşılaşması, insanın oxuyaraq məhsuldar keçirə biləcəyi ömür müddətinin uzanması, sosial harmoniya, cinayətkarlığın azalması və s. də göstərmək olar. Dövlətin qayda-qanunun qorunmasına və sosial

[7] Weiler, H. N. (2010): Universities in Trouble: The current crisis in American higher education. Presentation at a meeting jointly organized by the German Stanford Association and the Hertie School of Governance, October 19, 2010.– Berlin. s. 8.

ədalətin təmin edilməsinə çəkdiyi xərcləri də azaltmaq imkanı yaranır.[8] Bu effektlər mühüm əhəmiyyətli olsa da, onları kəmiyyət baxımndan qiymətləndirmək çox çətindir. Nə milli, nə də beynəlxalq səviyyədə konseptual anlayışlar standartlaşdırılmamışdır. Qiymətləndirmə ilə bağlı çətinliklər müəyyən dərəcədə "obyektin" özünün qeyri-maddiliyi ilə bağlıdır. İndustrial istehsalın məhsulu yekcins olduğundan onu təkrar istehsal etmək mümkün idi. Postindustrial cəmiyyətdə isə istehsal prosesləri kütləvi deyil, fərdi istehsala yönəlir.

İşdə iqtisadi artımın mənbələrinin müasir Azərbaycan üçün də çox önəmli olduğu vurğulanır və qeyd edilir ki, Prezidentin "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir...Biz öz imkanlarımızdan səmərəli istifadə edərək maddi kapitalı insan kapitalına çevirməliyik" ifadələri ölkənin təhsil sistemində ciddi dönüş yaratmışdır. Ölkədə bu istiqamətdə aparılan işlərdən, habelə mövcud problemlərdən bəhs edilərkən qeyd edilir ki, ölkəmizdə insan inkişaf indeksi əsasən ÜDM-in sürətli artımı hesabına yüksəlib. İnsan inkişaf indeksinə təsir edən digər amillər üzrə isə artım tempi istənilən səviyyədə deyil. Bu amillərdən ən əsası gözlənilən ömür müddəti indeksidir. Bu indeksin yüksəldilməsi üçün əhalinin sağlamlığına yönəldilən tədbirlər gücləndirilməlidir. Digər problem insan kapitalının miqrasiyası ilə bağlıdır. Ölkəmizdə insan kapitalının miqrasiyasının qarşısını almaq üçün strateji çıxış yollarından biri kimi inkişaf etmiş ölkələrin təhsil sistemləri ilə qarşılıqlı təsirlərin daha da genişləndirilməsi (məsələn, xaricdə qısamüddətli təlim proqramlarının təşkili, əcnəbi mütəxəssislərin cəlb edilməsi və s.), təqaüd proqramlarının inkişaf etdirilməsi, mütəxəssislərin vətənə qayıtmasının həvəsləndirilməsi, vətənə "intellektual qayıdış" (ideyalar, peşə bilikləri şəklində) potensialından istifadə edilməsi, bu işdə maraqlanan təşkilatlardan, təhsil müəssisələrindən və peşə birliklərindən ibarət koalisiyanın yaradılmasının mümkünlüyü göstərilir.

Dissertasiya işinin "**Postindustrial cəmiyyətdə təhsilin yeri və inkişaf tendensiyaları"** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Postindustrial sivilizasiyada təhsilin rolu"** adlı birinci yarımfəsildə maddi və mənəvi, obyektiv və subyektiv, tarixi və məntiqi, sosial və siyasi substansiyaların bir arada olduğu, həm ictimai varlığa, həm də ictimai şüura kök-

---

[8] Гринуэй Д., Хаунес М. Оценка выгод общества от систем высшего образования //Экономика образования. 2002. № 3. С. 64-68.

lənən təhsilin antropoloji, aksioloji, kulturoloji, psixoloji, institusional, psixoloji, semiotika və s. metodların sintezi əsasında sosiomədəni təhlilinin evristik potensialı ortaya çıxarılır. Qeyd olunur ki, cəmiyyətin və şəxsiyyətin maraqlarına yönəlmiş təhsil kimi çoxaspektli bir hadisəni araşdırmağa yalnız rəngarəng metodların epistemoloji sintezi imkan verə bilər. Bu cür epistemoloji sintez keyfiyyətində isə sosiomədəni yanaşma çıxış edə bilər. Bu, təhsil ilə mədəniyyətin nisbətini, onların qarşılıqlı təsirlərini, təhsildə mədəniyyətin yerini və əksinə, mədəniyyətdə təhsilin yerini dəqiqləşdirməyə imkan verər. Yarımfəsildə mədəniyyətə E.Taylor, A.Höbel, K.Uisler, A.Kreber, K.Klakxon, K.Manheym, O.Şpenqler və b. tərəfindən verilən təriflərin təhlili nəticəsində belə qənaətə gəlinir ki, təhsil bütöv bir sosiomədəni fenomendir; təhsil özünikişafında olan sistemdir; təhsilə təsir göstərən amillərdən biri bu cəmiyyətin mədəniyyətidir ki, bu mədəniyyət də onun daxili məzmununu (ideyasını), strukturunu, təzahür formalarını şərtləndirir; müxtəlif tarixi dövrlərdə və şəraitlərdə müxtəlif təhsil sistemləri qərarlaşır. Deməli, təhsili konkret cəmiyyətin sosiomədəni sistemindən ayırmaq mümkün deyil. Təhsil cəmiyyətin mühitə kollektiv uyğunlaşma formasıdır və təhsildə bu və ya digər ənənələri məhv etməklə sosial orqanizmi müdafiə mexanizmlərindən məhrum etmiş olarıq. Mədəniyyətin hər hansı sferasında hər hansı islahat zəruri olaraq onun digər sferalarına da təsir göstərir. Buna görə də xalqın mədəniyyətində və ya onun hər hansı sferasında süni edilmiş dəyişikliklərin son sosial nəticələri çox ağır ola bilir. E.Dürkheym haqlı olaraq vurğulayırdı ki, "dövlət adamının borcu cəmiyyəti zorla hansısa ideala doğru itələmək yox,...həkim kimi, yaxşı gigiyena ilə xəstəliklərin qarşısını almaq, onlar aşkar edildikdə isə onları müalicə etməkdir". [9]

Antropoloji və institusional metodların epistemoloji sintezi təhsilin daha dərinliklərinə varmaq imkanı verir. Bu zaman təhsil təhsil ideyaları, təhsil proqramları, dövlət standartları, təhsil idarələri və idarəetmə orqanlarından ibarət olan açıq, çevik və tam sistem kimi çıxış edir. Tədqiqat baxımından mühüm olan məqam odur ki, təhsil proqramları, dövlət standartları və s.-dən əvvəl insanlarda bu sosiomədəni mühitə kollektiv adaptasiya modelləri haqqında təsəvvürlər mövcud olur. İnsanların tərbiyə, onun üsulları haqqında baxışlarının əks olunduğu bu təsəvvürlər təhsilin bir növ nüvəsini təşkil edir. Təhsil ideyalarının bu müstəvidə şərhi göstərir ki, onlar təhsilin mahiyyətini təşkil edirlər. Təhsilin məzmunu, mahiyyəti ideyalarda cəmləşir. Beləliklə, təhsil ideyası arzu, təhsil sistemləri isə -

[9] Дюркгейм Э. О разделении общественного труда. - М.: Наука, 1991.– 572 с.

modeldir. Eyni zamanda digər sosial təsisatlarla (dövlət, istehsalat, elm, mədəniyyət, ailə) rəngarəng əlaqələrdə olan və onlara güclü təsir göstərən təhsilin sosial təyini cəmiyyətdə sosial nizamı təmin etməkdən ibarətdir. Deməli, təhsilin ayrılmaz tərkib hissəsini ictimai münasibətlər təşkil edir və təhsil ideyaları da məhz bu ictimai münasibətlərdən qaynaqlanır. Təhsil ideyaları, təhsil modelləri də məhz ictimai münasibətlərə üz tutur. Əks halda təhsil haqqında sosial orqanizmdə stabillik və tarazlığın təmin edilməsinə yönələn bir fenomen kimi söhbət açmaq mümkün olmazdı. Aksioloji prizmada təhsili cəmiyyətin mədəni dəyərlər sisteminin ayrılmaz tərkib hissəsi olan təhsil ideyasının, təsəvvür və dəyərlərin vəhdəti kimi çıxış edir. Təhsilin ideyasında konkret sosiomədəni ənənələrdən asılı olaraq həyat situasiyalarının ağlabatan həlli təcrübəsi yığılıb toplanmışdır. Bu ideyaların əsasında bu və ya digər xalqların həyata, iqtisadiyyata, mədəniyyətə, həyat tərzinə baxışları və münasibəti durur. Onlar o dərəcədə əhəmiyyətli hadisələrdir ki, sosial inkişaf prosesində bu baxışların dinamikasını aşkarlamalı və onları şəxsiyyət səviyyəsinə translyasiya etməli olan xüsusi bir təsisat da yaranır. Mədəni ənənələr, adət və s. isə müxtəlif xalqlarda eyni olmadığından, təhsil ideyaları da hər yerdə eyni ola bilməz.

Son zamanlar tədqiqatçılar nisbətən yeni olan metod və yanaşmalardan, o cümlədən, semiotika, sinergetika, hermenevtika metodlarından da geniş istifadə edirlər. Belə ki, sinergetik təsəvvürlər çərçivəsində aydın olur ki, təhsil həm sosiomədəni reallığa təsir göstərən, həm də onun özünütəşkil proseslərini nəzərə alan fundamental idarəetmə və təşkilati strukturlara daxildir. Təhsil təhsil prosesində qarşılıqlı təsirlərdə olan subyektlərin mədəniyyət səviyyəsindən asılı olan müəyyən şərti məna daşıyan işarə, rəmzi sistemi olduğundan, təhsili semiotika metodlarının köməyi ilə öyrənmək lazımdır. Semiotika prizmasında təlim prosesi müəllimdən təlim alana işarəvi informasiyanın ötürülməsi prosesi olmaqla kommunikasiya-semiotika prosesinin xüsusi bir növü kimi çıxış edir. Son illər işlənən zəruri müxtəliflik prinsipi də təhsilin öyrənilməsində böyük rol oynayır. Bu prinsipə görə,tarixi prosesin müxtəlifliyinin mütləqləşdirilməsi (O. Şpenqler, N.Danilevski, F.Toynbi) yolverilməzdir. Bu ideyaya əsaslanaraq qeyd olunur ki, daxili rəngarənglikə səciyyələnən müxtəlif təhsil sistemləri bir-biriləri ilə qarşılıqlı təsirlərdə olmaqla təhsilin zənginləşməsinə səbəb olurlar.

"İnformasiya cəmiyyətinin iyerarxik olan ənənəvi təhsil sistemlərindən fərqli olaraq, informasiya cəmiyyətində təhsil sistemi "heterarxikdir", çünki burada sərt müəyyən olunmuş qaydalar yoxdur. Onun nüvəsini

təhsil kommunikasiyaları təşkil edir".[10] Hər hansı qərar yalnız bu hal üçün (*ad hoc*) qəbul ediləcək və unikallığı qədər də unikal və təkrarolunmaz olacaq. Deməli, təhsil özinkişaf yoluna çıxacaq. Təhsilin özünüyaratma, özinkişaf yoluna qayıtması zəruri olaraq bu fenomenin əzəli məzmununun bərpa edilməsinə gətirib çıxaracaq. Bu məzmun da sosiomədəni reallığın xüsusiyyətləri ilə şərtlənmiş olacaqdır.

Tədqiqatın ikinci fəslinin **"İnformasiya cəmiyyətində təhsilin başlıca inkişaf istiqamətləri"** adlanan növbəti yarımfəslində müasir dünyada insanın ətraf mühitə təsirinin fasiləsiz xarakter aldığı, insan fəaliyyətinin müxtəlif sferalarının qarşılıqlı asılılığının və qarşılıqlı bağlılığının artdığı qloballaşma şəraitində təhsilin inkişaf tendensiyaları (təhsilin qloballaşması, qlobal ali təhsil bazarının yaranması, təhsilin beynəlmiləşməsi) təhlil edilir. Qeyd edilir ki, bu proses bu və ya digər dərəcədə ölkələrin təhsil sistemlərinin bütün struktur elementlərində özünü büruzə verir. Məzmun baxımından yeni sahələr (təhsil menecmenti, təhsil marketinqi, təhsil iqtisadiyyatı) meydana gəlmişdir. Təhsilşünaslığın da yeni-yeni sahələri (təhsil hermenevtikası, təhsil sinergetikası və s.) də yaranmışdır.

Millətlərüstü təhsil isə milli təhsil sistemləri tərəfindən dünyaya təklif edilən elə bir təhsil xidmətlərindən ibarətdir ki, onlar öz məqsədləri, məzmunu və metodlarına görə dünya təsərrüfatçılığının müasir tələbatlarına cavab verir, buna görə də bütün dünyada tanınır və keyfiyyətli aktual təhsil nümunəsi kimi dünya boyunca yayılır. Millətlərüstü təhsil vətəni olan təhsil kimi inkişaf edir, lakin elə bir təhsil cəhətləri əldə edir ki, onlar əcnəbi tələbələr tərəfindən adaptasiya və ya əlavə hazırlığı tələb etmir. "Millətlərüstü təhsilin mənbələrini beynəlxalq təşkilatların xalqlar arasında mədəniyyətləarası dialoqun, qarşılıqlı yardımın və qarşılıqlı anlamanın inkişaf etdirilməsi ilə bağlı ideyaları təşkil edir".[11]

Müasir təhsilin beynəlmiləşməsi tendensiyasının təhlili zamanı qeyd edilir ki, bəzi müəlliflər (C.Nayt, B.Vexter, M.Van der Vende) təhsildə "qloballaşma" və "beynəlmiləşmə" terminləri eyniləşdirib onları sinonim kimi işlədirlər. Digərləri isə (P.Skott) onları qarşı-qarşıya qoyur.

Yarımfəsildə ali təhsilin beynəlmiləşməsinin strategiya və formaları – tələbə və müəllimlərin mobilliyi məsələsi, bu hadisəni həvəsləndirən

---

[10] Шутенко А.И. Концепция самореализации студентов в условиях информатизации вузовского обучения//Современные исследования социальных проблем. Выпуск № 11 (55) / 2015. с. 595-604.

[11] Scott P. (1998): The Globalization of Higher Education//Open University Press, Buckingham, pp. 108-129.

proseslər, Ümumavropa ali təhsil sistemini formalaşdırmaq məqsədini güdən Boloniya prosesinin mahiyyəti və inkişaf mərhələləri ərtaflı təhlil olunur. Burada diqqət ali məktəblərin qloballaşması və beynəlmiləşməsinin ikili xarakterliliyinə yönəldilir. Qeyd edilir ki, bir tərəfdən, iqtisadi qloballaşma bazar rəqabəti və kapitalın qloballaşması imperativlərini, aparıcı ölkələrin institutional strukturlarının, xüsusən də onların təhsil sistemlərinin konvergensiyasını ön plana çıxarır. Digər tərəfdən, iqtisadi və siyasi imperativlərlə bağlı olan qlobal rasionallaşma unitar təhsil sistemi ideyasını irəli sürür. Bütün ölkələrin təhsildə monolit struktura doğru irəlilədiklərini söyləmək düzgün olmasa da, qlobal rasionallığın güclənməsi üzündən təhsil sistemlərinin əsasən oxşar formalar alacağını proqnozlaşdırmaq mümkündür. Qloballaşmanın nəticəsidir ki, bu gün təhsildə cərəyan edən prosesləri əks etdirən müəyyən terminlər də aktuallaşmışdır. Belə terminlərə misal olaraq "təhsilin unifikasiyası", "təhsilin standartlaşması", "təhsildə inteqrasiya", "təhsilin homogenləşməsi" və s. bu kimi anlayışları göstərmək olar. Bu anlayışlardan hər birinin öz xüsusiyyətləri olsa da, onları birləşdirən məqamlar da vardır ki, bu da qloballaşmanın Qərb mədəniyyətini yayması, milli mədəniyyətlərin baza dəyərlərini dağıtması, mədəniyyət aləmlərinin unifikasiyasıdır. Sözsüz ki, bir-birinə yaxın mədəni-tarixi kökləri olan ölkələrdə standartlaşdırma prosesi uğurlu ola bilər, lakin bir-birindən köklü şəkildə fərqlənən sosiomədəni şəraitdə aparılan unifikasiya xalqın öz təhsil sistemindən imtina edib mütləq təhsil ideyalarının təsdiqlənməsini nəzərdə tutur ki, bu da təhsil sisteminə heç də yaxşı təsir göstərməz. Bir cəmiyyətdə öz səmərəliliyini sübut etmiş hər hansı sistem başqa cəmiyyətdə faciəyə səbəb ola bilər. Lakin mədəniyyətlərin dialoqunun və müxtəlif ölkələrin mədəni xüsusiyyətlərinin qorunub saxlanmasının mümkünlüyü ideyasının özü müasir ədəbiyyatda diskussiyalı mövzulardan biridir. Bir tərəfdən, bəzi fikirlərə görə, qlobal məkanda mədəni rəngarənglik yox olacaq, digər tərəfdən də iddia edilir ki, milli mədəniyyətlərin artıq təməlində belə assimilyasiyaya qarşı immunitet kimi çıxış edən müxtəliflik mövcuddur. Buradan belə qənaətə gəlinir ki, gələcəkdə yeknəsək unifikasiya deyil, təhsil ideya və dəyərlərinin konvergensiyası, təhsildə irrasional və rasional başlanğıcların üzvi şəkildə əlaqələndirilməsi aktual olacaqdır.

Bəzi mütəxəssislər təhsilin qloballaşması və beynəlmiləşməsi tendensiyalarını ali təhsilə bazar prinsiplərinin nüfuz etməsi kimi qəbul edirlər.[12]

[12] Арефьев, А. Международный рынок образовательных услуг и росси-йские вузы / А.Арефьев // Высшее образование в России.-2008.-№ 2. с.145- 157.

Gətirilən arqumentlərə görə, rəqabətin kəskin xarakter aldığı bir şəraitdə universitetlər bazara üz tutmaq, özəl sənaye firmaları ilə daha sıx əlaqələr qurmaq, kommersiya bölmələrini yaratmaq, əcnəbi tələbələrə təhsil xidmətlərini satmaq məcburiyyətindədirlər. Qərb tədqiqatçıları hətta "bazar" davranışı və idarəçiliyi ilə xarakterizə olunan "sahibkarlar" universitetlərinin yarandığını da qeyd edirlər. "Sahibkarlar" universiteti elmi tədqiqatları kommersiyalaşdırmağa, biznes və universitet konsorsiumlarını yaratmağa meyllidirlər. Müəllimlərin gəlir gətirən fəaliyyətdə iştirakı genişlənir, həmkarları ilə elmi ünsiyyətə ayırdıqları vaxt azalır. Universitetlər qloballaşma proseslərinə qarşı dura bilməsələr, ali məktəb müəllimləri tədqiqatçılardan biznesmenlərə çevriləcəklər.[13] Aydındır ki, bu cür tendensiyalar təhsilin ənənəvi funksiyalarının aktuallaşmasına maneçilik törədir. Bundan başqa, təhsilin beynəlmiləşməsi prosesinin dönməzliyinə baxmayaraq, o, heç də bütün ölkələrdə həqiqi beynəlmiləşməyə, yəni təhsil sferasında səmərəli ölkələrarası əməkdaşlığa gətirib çıxarmamışdır. Qloballaşmanın və texnoloji tərəqqinin yüksək templərlə addımlaması nəticəsində ölkələr arasındakı uçurum yalnız artır. "Yeni təhsil bərabərsizliyi" inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdəki əhalinin təhsil səviyyəsindəki və təhsil xidmətlərinin inkişaf (həm kəmiyyət, həm də keyfiyyət) templəri arasındakı uçurumdan, mədəni baryerlərdən, transmilli təhsilin keyfiyyətinin qiymətləndirilməsinə dair qanunvericiliyin yoxluğundan, ali təhsil sistem və proqramlarının müqayisə meyarlarının işlənməməsindən irəli gəlir. Buna görə də ölkələr arasında transsərhəd axınlar son dərəcədə asimmetrikdir. Bununla əlaqədar hətta "təhsil ekspansiyası" termini də işlədilir. Avropanın heç özü də inkişaf səviyyəsi baxımından homogen deyildir. Lakin sırf neqativ münasibətdən də uzaq olmaq lazımdır. Beynəlmiləşmə elmi axtarışların çərçivələrini genişləndirir, tədris proqramlarını zənginləşdirir, universitetə maliyyə daxilomalarını artırır. Bundan başqa, qlobal qaydalar təsis olunduqca, risklər azala və həmrəylik effekti ilə bağlı olan əmək bölgüsü mexanizmləri təsis edilə bilər.[14] Beynəlmiləşmə siyasətini uğurla həyata keçirən ölkələrin yanaşmalarının, mexanizm və təcrübəsinin təhlili Azərbaycanda beynəlmiləşmə strategiyasının reallaşdırılması alətlərinin işlənib-hazırlanmasında faydalı ola bilər, işdə bu istiqamətdə təkliflər və tövsiyələr irəli sürülür.

---

[13] Актуальные вопросы развития образования в странах ОЭСР /Отв. ред. М.В.Ларионова. -М.: Издательский дом ГУ ВШЭ, 2005. -152 с.

[14] Multicultural education: issues and perspectives [Text] / edited by J.A. Banks, C.A. McGee Banks. – Hoboken: Wiley, 2007. – 491 p.

İkinci fəslin **“Təhsilin humanitar paradiqmasının mahiyyəti”** adlı üçüncü yarımfəslində belə bir müddəadan çıxış edilir ki, təhsil bu gün özünün adaptiv funksiyasının öhdəsindən gələ bilmir. Təhsil sektorunda gedən islahatlar təhsilin mənası, ideyası, dəyərləri təhsil və tərbiyə idealından ayrı düşmüşdür. Avropa sivilizasiyası tarixində təhsil paradiqmalarının təkamülünə nəzər salmaqla əsaslandırılır ki, buna səbəb industrializm, Avropada son üç yüzillikdə qərarlaşan stiyentist dünyagörüşü, rasionallıq, individualizm və praqmatizmdir. Kütləvi istehlak, kütləvi informasiya vasitələri, nəhayət, kütləvi təhsil – bütün bunlar həyatımıza kütləviliyi gətirən industrial dövrün törəmələridir və bu mənada hələlik ekonomsentrik istiqamətlənmiş sivilizasiyanın yeni inkişaf mərhələsi olan postindustrial cəmiyyətdə əvvəlki, yəni industrial mərhələnin dünyagörüşü qalmaqdadır. Müvafiq olaraq təhsil də həyatın yeni hadisələri ilə ziddiyyətə girir. Bu gün elmi və ictimai diskussiyalarda təhsilin vəzifələri sırf təlim funksiyası ilə məhdudlaşdırılır, təhsilin tərbiyə komponentinin üzərindən sükutla keçilir. İşdə V.fon Humboldt, M.Haydegger, K. Yaspers, M. Horkhaymer və b.-nın universitet konsepsiyalarına müraciət edilərək onların təhsilin ideyası haqqında mülahizələri aşağıdakı kimi ümumləşdirilir: universitet millətin ruhunun təcəssümü olmalı; təkcə ümummədəni deyil, həm də daha çox milli-mənəvi dəyərləri istehsal etməli və sadəcə intellektualı deyil, vətəndaşı yetişdirməlidir; universitet tədqiqatlarından fayda götürən dövlətin vəzifəsi universiteti təhrif olunmuş maraq və təsirlərdən qorumaqdır; dövlətin universitetin fəaliyyətində iştirakı ümumi şərtlərin müəyyən edilməsi ilə məhdudlaşır və bu şərtlər daxilində universitet sərbəst inkişaf və müstəqil tədqiqatlar aparır.

Müasirlik isə yüksək dərəcədə praqmatikliklə səciyyələnir. Ali təhsilə daha çox iqtisadi nöqteyi-nəzərdən yanaşılır. Ali məktəbin transformasiyası, təşkili formasının restrukturlaşdırılması iqtisadi rasionallığın diktəsinə tabe etdirilmişdir. Ali məktəblərdə idarəetmə alətlərinə müəssisələrin iqtisadi-istehsal rəhbərlik meyarlarından götürülmüş yeni alətlər əlavə edilmişdir. Məqsədli sazişlər, ibtidai smetalar, fayda hesabı, nəzarət, səmərəlilik ölçüsü, büdcə tərtibi, bençmarkinq və s. təhsil sektorunun yeni ruhda təşkil edildiyini göstərir. Ali təhsilin məqsədləri ilə bağlı tədqiqatlarda isə işqabiliyyətlilik, başlıca kompetensiyalar, səriştəliklər kimi anlayışlar işlədilir. Bilik utilitarlaşmış, biliyin qiymətləndirilməsində ənənəvi *“düzdür/ yanlışdır”* kodu *“tətbiq olunandır/tətbiq olunmazdır”* (J.F.Liotar) kodu ilə əvəz olunmuşdur. Bu gün M. Fukonun informasiyanın əldə edilməsi matrisalarına (ölçü, sorğu və müayinə) daha bir koqnitiv matrisanı da əlavə etmək lazım gəlir. Bu, sifarişdir. Bu matrisanın üstünlük təşkil etməsi müasir

universitetin muxtarlığını əlindən alır. Dövlət universitetlərə biznesdən müdafiəyə zəmanət verir, biznes isə universitetlərə dövlətin himayəsindən çıxmaq imkanı verir, amma əvəzində ona öz şərtlərini diktə edir. Ali məktəbin maliyyələşdirilməsi məsələsi şəraitində vəziyyət daha da kəskinləşir. Doğrudur, V.Humboldtun adı ilə bağlı olan universitet idealı xalis şəkildə mümkün deyil, yəni ali məktəblər heç vaxt iqtisadi və ya başqa amillərdən kənarda olmayıb. Lakin bu gün bazar və kommersiya təşkilatları getdikcə siyasi çəki alır, universitetlər isə onların həqiqi dəyəri olan həqiqət axtarışı və biliklərin ötürülməsi ilə bazarın iri oyunçuları arasında daha qabarıq şəkildə tərəddüd etməkdədir. Buna görə də humanist universitet və tərbiyə idealının tərəfdarları ali məktəblərin iqtisadiləşdirilməsini, təhsilin əmtəə səviyyəsinə endirilməsini, biliyin utilitarlaşdırılmasını kəskin şəkildə tənqid edir, universitetləri kommersiyallaşmadan uzaq olmağa çağırırlar. Ali təhsilin kommersiallaşmasına qarşı çıxanlar "Təhsil əmtəə deyil!","Təhsil satılmır!", "Təhsil əvəzsiz olaraq hamı üçündür!" deyə, bildirirlər. Onların fikirlərinə görə, təhsilin satılan əmtəə kimi qavranılması təhsilin ilkin ideyasına ziddir. Çox vaxt tələbəyə bilik yox, diplom lazım olur. Belə olduqda, "müştəri həmişə haqlıdır" devizi ali təhsil üçün dağıdıcı ola bilər. Təhsilin sosial məsuliyyətini və qlobal problemlərin həllində əhəmiyyətini də nəzərə almış olsaq, onda təhsil sisteminin homosentrik istiqamətdə yenidən qurulması zərurəti şübhə doğurmur.

Müasir təhsil paradiqması ətrafında gedən mübahisə təhsil prosesində bu gün mövcud olan ziddiyyətləri əks etdirir. Bu ziddiyyətlər aşağıdakı kimi ifadə oluna bilər: kütləvi cəmiyyət şəratində postindustrial cəmiyyətdə tələb olunan kreativ şəxsiyyəti formalaşdırmaq mümkündürmü? Axı kütləvi şüur yalnız daxili mənəvi dayaqlarından məhrum olan "kütlə insanını", "orta insanı" formalaşdıra bilər. Çıxış yolu kimi təhsilin humanistləşdirilməsi (problemli təlim, avtodidaktizm, fərdiləşdirmə, praktika ilə daha sıx əlaqələndirmə, tədris prosesinin unifikasiyasından imtina edilməsi, savadlılığının yeni meyarlarının tətbiq edilməsi) və humanitarlaşdırılması (təfəkkür mədəniyyətinin, yaradıcı qabiliyyətlərinin formalaşdırılması) göstərilir.Yeni təhsil paradiqması ayrı-ayrı elmlərin qeyri-klassik elm tərəfindən aradan qaldırılmış vəhdətini və bütövlüyünü, deməli, dünya mənzərəsinin də vəhdətini keyfiyyətcə yeni səviyyədə –"rəngarəngliyin vəhdəti" formasında bərpa etməlidir. Yalnız bu yolla insanda rasional, mənəvi və estetik bilikləri vahid bir tama gətirmək mümkün olacaq.

Dissertasiyanın **"Təhsilin qloballaşmasının və modernləşməsinin sosiomədəni amilləri"** adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Burada

dünyada cərəyan edən qloballaşma və modernləşmə proseslərinin mahiyyəti, cəmiyyətin modernləşdirilməsi üçün təməl olan innovasiya mədəniyyətinin formalaşdırılması, informasiya mədəniyyəti və təhsil islahatlarının sosiomədəni problemləri tədqiq olunur.

**"Müasir dünyada gedən qloballaşma və modernləşmə proseslərinin mahiyyəti"** adlanan birinci altfəsildə qloballaşma proseslərinin mahiyyəti və məzmununa olan yanaşmalar, bu məzmunu təşkil edən tendensiya və hadisələr təhlil edilir, qloballaşmanın tarixi və inkişaf mərhələləri, qloballaşma proseslərinin əlaqələndirildiyi modernləşmə fenomeninin mahiyyəti, qloballaşmanın özü ilə gətirdiyi təhdidlər və şanslar araşdırılır.Qeyd olunur ki, adətən "qloballaşma" anlayışı altında kapitalın ayrıca dövlətin çərçivələrindən kənara çıxması, vahid ümumdünya iqtisadiyyatının formalaşması prosesi başa düşülür. Lakin problemə bu müstəvidə belə yanaşdıqda, onun yalnız iqtisadi tərəfi nəzərə alınır, daha fundamental əsasları isə kölgədə qalır. Qloballaşmanın rəngarəngliyi təkcə qarşılıqlı asılı iqtisadiyyatların yaranması, əmtəə, pul və işçi qüvvəsinin hərəkəti yolunda bütün maneələrin aradan qaldırılması və iqtisadi, sosial və hüquqi münasibətlərin tənzimlənməsində milli dövlətlərin rolunun zəifləməsində deyil. Qloballaşma bəşəriyyətin tamamilə yeni inkişaf mərhələsinə keçməsinin nəticəsi kimi maliyyə-bank sferasında, qiymətli kağızlar bazarında, sənaye, mədəniyyət, təhsil, elm, hüquq və s. sahələrdə baş vermiş proseslər kompleksidir.

Aparılan təhlil əsasında qloballaşmanın məzmununu aşağıdakı tendensiya və hadisələrdən ibarət olduğu qeyd olunur: dövlətlərarası sərhədlərin aradan qaldırılması prosesinin sürətlənməsi (işdə bu fenomen «iqtisadi vətəndaşlıq» adlandırılır); kapital, informasiya, xidmətlər və insan resurslarının transmilli, transdövlət axınlarının həcmi, sürəti və intensivliyinin kəskin dərəcədə artması, dünyanın beynəlxalq maliyyə bazarlarının «qabığı» ilə örtülməsi; Qərb istehlak, məişət və mədəniyyət standartlarının planetin bütün digər hissələrinə kütləvi şəkildə yayılması; dünya iqtisadiyyatı və beynəlxalq münasibətlərin dövlətdənkənar, transdövlət və nəhayət, qeyri-dövlət tənzimləyicilərinin rolunun artması, siyasətin «iqtisadiləşməsi», iqtisadi proseslərin qlobal miqyas alması və nəticədə birincinin ikinciyə tabeçiliyi ilə daxili və xarici siyasət arasında sərhədlərin pozulması, iqtisadiyyatın real idarəetmə mexanizmlərinin əsasən beynəlxalq təşkilatların əlində cəmləşməsi; demokratik dövlət quruculuğunun bu və ya başqa modelinin ixracı və müxtəlif ölkələrin siyasi toxumalarına yeridilməsi; şəxsiyyətin sosiallaşma imkanlarını əhəmiyyətli dərəcədə artıran elektron-kommunikasiya vasitələrinin, internet, multimedia və qlobal rabitə vasitələrinin meydana gəlməsi nəticəsində insan

fəaliyyətinin virtual məkan obrazlarına əsaslanan tamamilə yeni növlərinin (informasiya iqtisadiyyat, kommunikavistika, virtual coğrafiya və s.) meydana gəlməsi; dünyanın qarşılıqlı asılılığının və qarşılıqlı bağlılığının artması, informasiyanın istənilən məsafəyə bir andaca çatdırılması imkanlarının hesabına lokal olanın ümumdünya olana, ümumdünya olanın lokal olana çevrilməsi, ümumplanetar məkan-zaman infrastrukturunun formalaşması; qlobal informasiya sahəsində hamının və ayrılıqda hər bir fərdin başqasının taleyinə görə məsuliyyət daşıması; «qloballaşma ideologiyasının» yaranması (insanların bütün yerli maraq, norma və ənənələrdən ardıcıl şəkildə uzaqlaşdırılması, unifikasiya meyllərinin güclənməsi).

Fəsildə belə qənaətə gəlinir ki, qloballaşma cəmiyyətin praktiki olaraq bütün sferalarında, ilk növbədə istehsal sferasında, müvafiq olaraq, mədəniyyətin institut və strukturlarında, deməli, mədəniyyətin tərkib hissəsi olan təhsildə də müvafiq modernləşmə proseslərinə səbəb olmuşdur. Əvvəllər sahibkarlıq fəaliyyətinin uğuru əsasən istehsal amillərinin klassik kombinasiyasından asılı idisə, bu gün bu uğur daha çox bilik elementlərinin mürəkkəb (qeyri-səlis) kombinasiyasından, bu elementlərin və texnologiyaların inteqrasiyasından, kapital, informasiya və intellektual resursların bir araya gətirilməsindən asılıdır. İstehsal artıq innovasiyalar və dəyişikliklər üzərində nəzarət hesabına baş verir. Qloballaşma yeni etalon, standartlar, mədəni dəyərlərin mənimsənilməsi ilə də müşayiət olunur. Nəhayət, müasir dünyada sosial sistemlərin və mədəniyyətlərin inteqrasiyası tendensiyaları da güclənmişdir. Bütün bunlar innovasiya mədəniyyətinin inkişafına yol açır. Bu barədə üçüncü fəslin **“Təhsilin qloballaşması və innovasiya mədəniyyəti”** adlanan ikinci yarımfəslində söhbət açılır.

Yarımfəsildə “innovasiya” terminin mahiyyəti, yaranma tarixi təhlil edilir, innovasiyaların növləri (innovasiya məhsulu, texnoloji innovasiyalar, sosial innovasiyalar), bu və ya digər obyektin innovasiya kimi tanınmasının meyarları, innovasiya modelləri və onların təşkil olunduğu fazalar, izlənilən innovasiya məqsədləri müəyyən edilir, innovasiya mədəniyyətinə verilən təriflər, onun cəmiyyətdə rolu təhlil edilir, bu zaman innovasiya mədəniyyəti korporativ mədəniyyətin mahiyyəti və funksiyaları kontekstində nəzərdən keçirilərək korporativ mədəniyyətlə innovasiya uğurları arasında əlaqələr ortaya çıxarılır, müasir cəmiyyətdə təhsil müəssisələrinin innovasiya fəaliyyəti tədqiq edilir, ölkəmizdə ali məktəblərin innovasiya fəaliyyətinin genişləndirilməsi istiqamətində görülən tədbirlər işıqlandırılır.

Dissertasiyada tətbiq olunan sosiomədəni yanaşma “innovasiya mədəniyyəti”ni ümumi mədəni ilkin şərtləri, milli qaynaqları, tarixi yaddaşı, adət

və ənənələri, təhsil səviyyəsini, idarəetmə orqanlarının səmərəli iş üsullarını daxil edən kompleks anlayş kimi nəzərdən keçirməyə imkan verir.

"Təhsil səviyyəsi", "milli qaynaqlar", "adət və ənənələr" bir tərəfdən, mücərrəd cəmiyyətə və ya şəxsiyyətə istinada imkan verməyən, digər tərəfdən də insanların bu və ya digər yeniliyə hazır olub-olmamasının səbəblərini daha yaxşı izah etməyə, yad mədəniyyətlərdən götürülən innovasiyaların həyata qabil olma dərəcəsini anlamağa imkan verən mühüm amillərdir. Sosiomədəni yanaşma innovasiya mədəniyyətlərinin çoxvariativliyindən xəbər verir. İstənilən cəmiyyətin tarixinə müraciət etməklə onun innovasiya mədəniyyətində əyani şəkildə öz əksini tapan xüsusiyyətləri (yeniliyə qarşı konformizm, tolerantlıq və ya dözümsüzlük) izləmək mümkündür. Bəzi mədəniyyətlər yeniliklərə yayılmağa imkan vermir, digərləri isə onlara geniş yol açır. Sosiomədəni amillərin innovasiya mədəniyyətinin başlıca determinantı kimi çıxış edə bilməsi iki aspektdə özünü büruzə verir. Birincisi, sosial sistemdə qüvvədə olan kauzal amillər spesifik insani fəaliyyət üsulları, yəni mədəniyyət fenomenləridir. İkincisi, sosial sistemdə qüvvədə olan bütün kauzal amillərə ictimai psixologiya kimi bir fenomen təsir göstərir. Cəmiyyətdə innovasiya mədəniyyəti sisteminin var gücü ilə "işləməsi" üçün aşağıdakı obyektiv və subyektiv şərtlər tələb olunur: cəmiyyətin innovasiyalarda maraqlı olması və buna hazır olması; təhsil və ümumi mədəniyyət səviyyəsi; idarəetmənin bütün həlqələrində mənəvi başlanğıcın gücləndirilməsi; idarəetmə strukturlarının yüksək peşəkarlığı; mənəvi və maddi nemətlər (yeni məhsul və ya xidmətlər) növündə innovasiya fəaliyyətinin real nəticələri; innovasiya fəaliyyətinin nəticələrinin milli psixologiyaya, mədəni mühitin spesifikliyinə uyğunluğu. Postindustrial cəmiyyətdə təhsil müəssisələrinin innovasiya fəaliyyətinin təhlili zamanı qeyd edir ki, bu gün milli və qlobal kontekstdə cərəyan edən sərt rəqabət şəraitində ali məktəblər təkcə təhsil və tədqiqat fəaliyyəti ilə deyil, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Bu, XXI əsr üçün ali təhsil haqqında Ümumdünya bəyannaməsində qeyd edilmişdir. Müvafiq olaraq bu, ali məktəblər tərəfindən daha bir fəaliyyətin – innovasiya fəaliyyətinin həyata keçirilməsini şərtləndirir. Bir tərəfdən, innovasiyaların yaradılması və onlardan istifadə təhsil bazarında rəqabətlə şərtlənir, digər tərəfdən innovasiyaların özü rəqabətəqabiliyyətliliyin yüksəldilməsi amili kimi çıxış edir. Bundan başqa, innovasiyaları tətbiq edən təhsil müəssisələri təhsil bazarında müvəqqəti inhisarçılıq nəticəsində əlavə gəlir götürmək imkanı əldə edir.

Nəhayət, radikal innovasiyalar yeganə vasitədir ki, onlara söykənməklə balaca bir təhsil müəssisəsi aparıcı məktəbə çevrilə bilər. Yarım-

fəsildə ali təhsildə innovasiya mədəniyyətinin formalaşdırılmasına şərait yaradan və innovasiyaların tətbiqinə mane olan amillər, bu maneələrin aradan qaldırılması yolları müəyyən edilir, ali təhsil müəssisələrinin innovasiya strategiyalarının əsas elementləri ortaya çıxarılır. İnnovasiya fəaliyyətini inkişaf etdirən ölkəmizdə bu sahədə iddialı hədəflər qoyulmuşdur. "Azərbaycan –2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edildiyi kimi, "uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, "bilik iqtisadiyyatı"nı formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi" əsas istiqamətlərdən birini təşkil edəcəkdir.

İnnovasiya mədəniyyətinin inkişafını şərtləndirən resurslardan biri informasiya mədəniyyəti olduğundan, dissertasiya işinin üçüncü fəslinin "**İnformasiya mədəniyyəti və təhsil islahatlarının sosiomədəni amilləri**" adlanan üçüncü yarımfəslində informasiya bolluğunun yaratdığı problemlər təhlil olunur. Qeyd edilir ki,cəmiyyətdə, o cümlədən İnternetdə sirkulyasiya edən informasiyanın həcminin artması avtomatik olaraq mədəni səviyyənin yüksəlməsinə gətirib çıxarmır, ən azı ona görə ki, həmin informasiya axınında şübhəli olanlar da az deyil. Müasir cəmiyyətin informasiya-texnika potensialından mədəni yaradıcılıq və mənəvi cəhətdən yüksək inkişaf etmiş şəxsiyyətin formalaşdırılması, fərdin mənəvi inkişafı üçün deyil, insanın dəyişmiş şəraitə adaptasiya etdirmək məqsədi ilə istifadə olunur.

İnformasiyanın seçilməsi, toplanmış sonsuz mədəni materialın sosial tələbata uyğun müəyyənləşdirilməsi mütəxəssisin peşə hazırlığına "informasiya mədəniyyəti" komponentinin əlavə edilməsi zərurətini şərtləndirir. Şəxsiyyətin informasiya mədəniyyətini nəzərə almadan qloballaşmanın nəticələrini qiymətləndirmək mümkün deyil. İnformasiya mədəniyyətini araşdıran tədqiqatlar ən müxtəlif elmlərin nümayəndələri tərəfindən aparılır.

Nəticədə "informasiya mədəniyyəti" anlayışına diametral əks (texnokratik və humanitar) yanaşmalar mövcuddur. İnformasiya mədəniyyətini fəlsəfi-kulturoloji aspektdə araşdırmaq məqsədilə yenə də mürəkkəb və çoxşaxəli fenomen olan mədəniyyətə müraciət etməklə informasiya mədəniyyətini insanın sosial təbiəti ilə ayrılmaz bağlı olan hadisə, onun ümumi mədəniyyətini təşkil edən elementlərdən biri, cəmiyyətin sərəncamında olan informasiyanın qavranılması, onunla rəftar formaları, məsələləri strukturlaşdırıb həll etmək, informasiyanı müstəqil və məqsədyönlü şəkildə axtarmaq tapmaq bacarığı, habelə onu məsuliyyətli şəkildə tətbiq etmək qabiliyyəti kimi səciyyələndirilir. Şəxsiyyətin informasiya mədəniyyəti sistemində aksioloji, texnoloji, yaradıcı və normativ komponentlər fərqlən-

dirilir. Şəxsiyyətin informasiya mədəniyyətinin formalaşması prosesinə təsir göstərən amillər təhlil edilərkən qeyd edilir ki, bir tərəfdən insan cəmiyyətin mədəni təsisatlarının, o cümlədən təhsil institutlarının təsirinə məruz qalır və bu mənada obyekt kimi çıxış edirsə, digər tərəfdən o, öz mənəvi praktiki fəaliyyəti, özünütəhsil və özünütərbiyə vasitəsilə artıq informasiya mühitinin, özünün və öz fərdi informasiya mədəniyyətinin yeni şəklə salınmasının subyekti kimi çıxış edir. İnformasiya dövründə təhsil insanın aşağıdakı üç amilə ehtiyacını təmin etməlidir: qeyri-stabilliyin stabil dərki (dəyişikliklərə qarşı həssaslıq, çeviklik, korreksiyaya hazır olma), predmet və strateji biliklər (situasiya haqqında biliklər, informasiya mənbələri haqqında biliklər, başqa mədəniyyətlərdə qərar qəbuletmə situasiyalarında davranış haqqında biliklər, qərar qəbuletmə strategiyaları haqqında biliklər), texniki və koqnitiv səriştəlilik (qeyri-səlis düşüncə qabiliyyəti, informasiyanı axtarıb tapıb emal etmə qabiliyyəti, məqsədi təyin etmə və strukturlaşdırma qabiliyyəti, situasiyanı təhlil etmə qabiliyyəti, nəzarət və qiymətləndirmə qabiliyyəti, risk və strategiyalarla bağlı kommunikasiya qabiliyyəti, intermədəni səriştəlilik). Şəxsiyyətin informasiya mədəniyyətinin səmərəli şəkildə formalaşdırılması dövlət tərəfindən sosial cəhətdən zərərli informasiyanın yayımlanması üzərində nəzarətin gücləndirilməsini və vətəndaşların psixi sağlamlığa, mənəvi inkişafa zərər yetirən informasiyadan müdafiəsinə yönələn qanunun qəbul edilməsini tələb edir.

Tədqiqatın "**Azərbaycanın təhsil ənənələri və onların modernləşdirilməsi strategiyası**" adlanan dördüncü fəsli üç yarımfəsildən ibarətdir. **"Azərbaycan təhsilinin sosiomədəni ənənələri"** adlanan birinci yarımfəsil tədqiqat mövzusu baxımından mühüm məsələnin təhlilinə – təhsil ideyalarında təhsili bizim cəmiyyətdə legitim edən, Azərbaycan xalqının təhsil sistemini digər xalqın təhsil sistemindən fərqləndirən cəhətlərin üzə çıxarılmasına həsr edilmişdir. Burada çıxış müddəalar kimi aşağıdakılar qeyd edilir: təhsil vasitəsilə bəşəriyyətin yığıb topladığı mənəvi dəyərlər və nailiyyətlər nəsildən-nəsilə ötürülür; bununla yanaşı təhsil nisbi müstəqilliyə malikdir ki, bu da təhsilin ruhunda, ideyalarında, təhsil mentalitetində öz ifadəsini tapır; bu, təhsil sistemlərinin rəngarəngliyinin səbəblərini də izah edir. Heç bir təhsil sistemi digərlərindən daha səmərəli və ya daha mütərəqqi hesab oluna bilməz, çünki təhsilin forması müəyyən cəmiyyətdə baş verən obyektiv-subyektiv proseslərlə şərtlənir və cəmiyyətin digər sahələri ilə ziddiyyətə girə bilməz. Tarixən təşəkkül tapmış təhsil sistemi və xüsusən də təhsil sosiomədəni fenomenlər kimi fəaliyyət göstərir və məzmunu islahatlar zamanı nəzərə alınan (və alınmalı olan) ən mühüm amillərdəndir.

Azərbaycan təhsilinin bu müddəalar prizmasında araşdırılması nəticəsində belə qənaətə gəlinir ki, Azərbaycanın təhsil ənənələri hazırda çətinlik dövrünü yaşayır. Belə ki, Azərbaycanın təhsil ənənələri ölkənin Şərqlə Qərb arasında aralıq mövqedə yerləşməsi, İslam dini, mədəni dəyərlər sisteminin spesifikliyi (ölkənin təhsil sistemi həm inqilabaqədərki mədəniyyətin izlərini, həm sovet dövründə, həm də müasir dövrdə formalaşmış mədəniyyətin izlərini daşıyır) kimi mühüm amillərin təsiri altında formalaşmışdır. Azərbaycanda həqiqi təhsil maariflənmə mənasını vermiş və şəxsiyyətin bütöv dünyagörüşünün formalaşdırılmasına yönəlmişdir. Humanitar hazırlığın, mənəviliyin yüksək qiymətləndirildiyi Azərbaycanda təhsilin həmişə mədəni dəyər olduğunu dərk edən Azərbaycan dövləti bu gün də təhsil ənənələrimizə uyğun olaraq təlimalanlarda təkcə intellektual qabiliyyətləri deyil, həm də qeyri-koqnitiv sferanın inkişaf etdirilməsini təhsilin hüquqi təsbit edilmiş vəzifəsi kimi müəyyən etmişdir. Təhsilimizin humanist xarakteri, şəxsiyyətin azad inkişafı dövlət siyasətinin prinsipləri kimi təsbit edilmişdir. Hazırda Azərbaycan təhsilinin inkişafı demək olar ki, tam olaraq Avropa mədəni kontekstində gedir, "təhsil mentaliteti" adlanan hadisə, təhsilin milli xarakteri tamamilə unudulur. Avropa rasionalizmi Azərbaycan təhsilinin əzəldən irrasional mənəvi başlanğıca yönəlişliyinə ziddir.

Təhsil islahatçılarımız təhsilin ruhunu tuta bilməlidir. Təhsilin ruhunu tutma prosesi də elə məhz təhsil mentalitetinin dərki prosesidir. Bu, onların qəbul etdiyi qərarları əsaslandırılmış edər, eyni zamanda insanlar tərəfindən də bəyənilməsini təmin edər.

Azərbaycan təhsilinin konseptual, nəzəri-metodoloji çətinliklərdən çıxışı yolunda köməyə ilk növbədə təhsil fəlsəfəsi gəlməlidir. Təhsil fəlsəfəsindən başqa, Azərbaycanın təhsil mentalitetinin durumunu öyrənmək üçün sosioloji, psixoloji tədqiqatların nəticələrindən da yararlanmaq faydalı olar.

Tədqiqatın dördüncü fəslinin ikinci yarımfəsli **"Avropa təhsil məkanına inteqrasiya kontekstində Azərbaycan təhsilinin modernləşməsinin sosiomədəni şərtlənməsi"** adlanır. Qeyd olunur ki, bu gün Azərbaycanın qarşısında duran əsas vəzifə xammal yönümlü iqtisadiyyatdan biliklərə əsaslanan xidmət iqtisadiyyatına keçid etmək, qlobal rəqabətdə mövqeləri möhkəmləndirməkdir. Bunun üçün Azərbaycan təhsili modernləşdirilməlidir. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il Sərəncamı ilə təsdiq edilmiş, təhsil siyasətinin Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda müəyyən edilən və "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında açıqlanan əsas prinsiplərini inkişaf etdirən Təhsilin inkişafı üzrə Dövlət Strategiyası da Prezident İlham Əliyevin neft

gəlirlərinin insan kapitalına çevrilməsi ilə bağlı irəli sürdüyü konsepsiyanın mahiyyətindən irəli gələrək Azərbaycan təhsilinin rəqabətqabiliyyətinin yüksəldilməsi üçün onun zamanın çağırışlarına vaxtında cavab verməsinə, təkamül yolu ilə modernləşdirilməsinə yönəlmişdir. Təhsilin modernləşdirilməsi Azərbaycan cəmiyyətinin müxtəlif sahələrində aparılan digər islahatlarla sıx əlaqədə və qarşılıqlı təsirlərdə cərəyan edərək eyni zamanda həmin islahatlar üçün zəruri kadr təminatı mənbəyi kimi çıxış etməlidir. Strategiyanın əsas məqsədi Azərbaycanda təhsil sahəsindəki mövcud problemlərin mərhələli şəkildə həll edilməsi, insan kapitalının inkişaf etdirilməsi və təhsilin səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Strategiya yaxın 10 ildə təhsil sektorunun təməl problemlərinin həllini nəzərdə tutur. Bir tərəfdən, ümumi biliklərin daima yeniləşməsi və inkişaf etməsi, digər tərəfdən, cəmiyyətdə tez-tez baş verən dəyişikliklər və peşə fəaliyyətinin yaradıcı xarakterinin artması ilə əlaqədar mütəxəssisə verilən təhsil onun bütün həyatı boyu peşə fəaliyyətinə kifayət etmədiyindən, Strategiyanın əsas ideyası hər bir insana həyat boyu bilikləri əldə etmək, onları inkişaf etdirmək, təkmilləşdirmək, özünürealizə imkanı verəcək sistemin yaradılmasındadır.Təhsil fasiləsiz bir proses olaraq nəzərdən keçirilir. Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Azərbaycanı dünyanın aparıcı savadlı ölkələrindən birinə çevirəcəkdir. Müqayisəli perspektivdə ölkə ali məkəblərinin modernləşmə strategiyasının həyata keçirilməsi yolunda maneələr kimi universitetlərin hələ də kifayət qədər operativ muxtariyyata malik olmamasını, tədqiqatçılığa yönələn idarəetmə strukturlarının olmamasını, tədqiqatların, akademik mobillik proqramlarının zəif maliyyələşdirilməsi, onları dəstəkləyən infrastrukturun yoxluğu, gənc alimlərin kifayət qədər müstəqil olmaması və nəhayət, ölkəmizin hüdudlarından kənarda təhsil alanların mütəxəssis potensialından yetərli dərəcədə istifadə olunmaması qeyd edilir.

Təhsilin modernləşdirilməsi problemləri Avropa təhsil məkanına inteqrasiya kontekstindən, Boloniya prosesi konsepsiyasının reallaşdırılmasından kənarda həll edilə bilməz. Dissertasiya işinin dördüncü fəslinin “**Boloniya prosesi konsepsiyasının həyata keçirilməsinin milli-mədəni xüsusiyyətləri və perspektivləri”** adlanan üçüncü yarımfəsli də elə məhz bu məsələyə həsr edilmişdir. Qeyd olunur ki, Boloniya prosesi kifayət qədər emosional mövzu olaraq qalır. Ölkə ictimaiyyətinin bu prosesə münasibəti ziddiyyətlidir. Mütəxəssislər Boloniya prosesinin ikiliyinə, ambivalentliynə diqqəti çəkirlər: onun əsasında ekspansivlik durur, yoxsa müdafiəçilik? Bəzi mütəxəssislər ölkə ümumavropa təhsil məkanına inteqrasiya etməklə,

Avropa və dünya təhsil xidmətləri bazarına çıxmaqla, Avropanın ən qocaman universitetlərinin topladığı zəngin təcrübə ilə tanış olmaqla ali təhsilinin keyfiyyətini, bununla da ölkənin rəqabət qabiliyyətini yüksəltmək imkanı əldə edir. Digərləri isə hesab edirlər ki, Boloniya Konvensiyasının müddəalarının həyata keçirilməsi Azərbaycan ali təhsilinin özünəməxsusluğunun yox olmasına, tarixən təşəkkül tapmış təhsil ənənələrinin dağılmasına səbəb olacaqdır. Qeyd olunur ki, narahatçılığa əsas var, çünki problem bilavasitə Azərbaycanın qloballaşma şəraitində sivilizasiya identikliyinə toxunur. Yarımfəsildəki mülahizələr "təhsil təhsil ideyaları sistemidir" tezisi üzərində qurulur.Təhsil bu və ya digər mədəniyyətin əsas, baza dəyərlərinə uyğun olmalı, yəni mədəni məna ilə "qanuniləşdirilmiş" olmalıdır. Mədəniyyətlərin mozaikliyi şəraitində təhsilin universal dəyərləri avtomatik və birmənalı olaraq zəfər çala bilməz. Eyni zamanda təhsilə bütöv bir hadisə kimi yanaşılmalıdır: keçmişin təhsili haqqında təsəvvürlərimiz keçmişin irsinin mənimsənilməsi və müasir təhsilin və humanist dəyərlərin yenidən dərki yolu ilə daha konkret məzmun ala bilər. Amma təhsilə bütöv bir hadisə kimi yanaşmaqla yanaşı onun rəngarəngliyini, hər birinin yeni bir şeyi yaratdığı təhsil ənənələrini də kənara qoymaq olmaz. Buna görə də təhsil prosesində inteqrasiyadan danışarkən, diqqət keyfiyyətlə, üstünlüklərlə zənginləşmə məsələsində cəmləşdirilməlidir. Azərbaycanın Avropada gedən inteqrasiya proseslərində iştirakını dialektik prinsip vasitəsilə reallaşdırmaq lazımdır, yəni köhnə məhv edilməklə deyil, varislik gözlənilməklə inkar edilməlidir. Belə strategiyanı həyata keçirərkən hazır sxemlərdən uzaq olmaq lazımdır. Deyilənlər Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 22 oktyabr 2007-ci il tarixli iclasındakı yekun nitqində söylədiyi aşağıdakı tezisə də tam uyğundur: "Kortəbii şəkildə orada nə var, gəlin bunu Azərbaycanda da edək – bunu etmək olmaz. Orada bəzi şeylər var ki, onların bizə heç bir xeyri olmayacaqdır. Amma müsbət nə varsa, biz onu gətirməliyik, tətbiq etməliyik".[15]

Yarımfəsildə ölkədə Boloniya prosesinin həyata keçirilməsinin təməl prinsipləri (varislik, rəngarənglik, humanitarlaşdırma,mənəvi yeniləşmə, mədəniyyətə müvafiqlik, tolerantlıq, əlçatanlıq, milli dil, ictimai dəstək) müəyyənləşdirilib təhlil edilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulur, başlıca qənaətlər ümumiləşdirilir, müəllifin tövsiyələri verilir. Əldə edilən qənaət-

---

[15] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları 2007-ci il.s.319. http://files.preslib.az/site/ialiyev/ 2007. pdf

lərdən biri budur ki, qədim tarixi kökləri olan Azərbaycan təhsili həmişə adət və ənənələrə xas olan prinsiplərə köklənirdi. Müasir Azərbaycanda isə təhsil qanunvericiliyi fərdiçiliyin, şəxsiyyətin muxtarlığının üstünlük təşkil etdiyi Avropa qanunvericiliyinə uyğun yaradılır ki, bu da Azərbaycanın sosiomədəni gerçəkliyinə, mentalitetinə, deməli, təhsil reallıqlarına da uyğun deyil. Qanunvericiliklə gerçəklik arasında uçurumun meydana gəlməsi zəruri olaraq təhsilin nüfuzunun aşağı düşməsinə səbəb olur. Çıxış yolu dünya elmi fikrinin müasir tendensiyalarını, ilk növbədə epistemoloji plüralizmi bəyan edən postklassisizmi nəzərə alaraq təhsili sosiomədəni yanaşma əsasında öyrənməkdir. Bu yanaşma təhsili təhsil ideyaları, təhsil proqramları, dövlət standartları, təhsil idarələri və idarəetmə orqanlarından ibarət olan açıq, çevik və tam sistem kimi nəzərdən keçirməyə imkan verdi. Antropoloji, kulturoloji, psixoloji, aksioloji, institusional, semiotik yanaşmaları cəlb etməklə təhsilin sosiomədəni hadisə kimi cəmiyyətin mədəni dəyərlər sisteminə üzvi şəkildə daxil olduğu əsaslandırıldı və sübut edildi ki, istənilən ənənələr kimi, təhsil ənənələri də cəmiyyətin keyfiyyətinin əsası, onun durumunun güzgüsüdür. Təhsilin, daha doğrusu, təhsil ideyalarının mahiyyəti cəmiyyətin əxlaqi, dini və s. təsəvvürləri, milli adətləri ilə eyniyyət təşkil edir və təhsil sistemində hər hansı islahatları həyata keçirərkən konkret sosiomədəni reallığın xüsusiyyətləri, onun baza dəyərləri, təhsil mentaliteti nəzərə alınmalıdır.

Bundan başqa, qeyd olunur ki, tərəqqinin ənənəvi göstəricisi olan ÜDM dəyəryaratmaya, münasibətlərə və səmərəliliyə deyil, kütləyə əsaslandığından, o, informasiya cəmiyyətində milli iqtisadiyyatın durumunu tam həcmdə əks etdirə bilmir. Bunun nəticəsində milli hökumətlər milli iqtisadiyyatın faktiki vəziyyəti, ölkənin iqtisadi qüdrəti, onun dünya iqtisadi sistemdə yeri ilə bağlı yanlış nəticələr əldə edirlər. Deyilənlər siyasət, elm və iqtisadiyyat qarşısında qeyri-maddi resurslar iqtisadiyyatında intellektual kapitalın idarə edilməsi, insan kapitalından uğurla istifadə edib, inkişaf etdirmək üçün adekvat metodların işlənib hazırlanması ilə bağlı yeni vəzifələr qoyur.İnsan kapitalının artımına nail olmaq üçün yetişməkdə olan nəsil arasında potensial qabiliyyət və istedadları axtarmaq, insan kapitalının miqrasiyasının qarşısını almaq, bu məqsədlə inkişaf etmiş ölkələrin təhsil sistemləri ilə qarşılıqlı təsirləri daha da genişləndirmək, təqaüd proqramlarını inkişaf etdirmək, mütəxəssislərin vətənə qayıtmasını həvəsləndirmək, vətənə "intellektual qayıdış" (ideyaların, peşə biliklərinin qayıdışı) potensialından da istifadə etmək olar.Tədqiqat işində alınan nəticələrdən biri də budur ki, tərəqqinin ənənəvi göstəricisi olan ÜDM dəyəryaratmaya, münasibətlərə və

səmərəliliyə deyil, kütləyə əsaslandığından, o, informasiya cəmiyyətində milli iqtisadiyyatın durumunu tam həcmdə əks etdirə bilmir. Bunun nəticəsində milli hökumətlər milli iqtisadiyyatın faktiki vəziyyəti, ölkənin iqtisadi qüdrəti, onun dünya iqtisadi sistemdə yeri ilə bağlı yanlış nəticələr əldə edirlər. İqtisadi inkişafı yalnız adambaşına düşən ÜDM-ın miqdarı ilə deyil, kəmiyyət xarakteristikaları dəqiq təyin edilə bilinməyən sosial amillərlə, o cümlədən intellektual kapitalın səmərəliliyi əsasında da müəyyənləşdirmək təklif olunur. Bu, siyasət, elm və iqtisadiyyat qarşısında qeyri- maddi resurslar iqtisadiyyatında intellektual kapitalın idarə edilməsi, insan kapitalından uğurla istifadə edib inkişaf etdirmək üçün adekvat metodların işlənib hazırlanması ilə bağlı yeni vəzifələr qoyur. İnsan kapitalının artımına nail olmaq üçün yetişməkdə olan nəsil arasında potensial qabiliyyət və istedadlar axtarılmalı, insan kapitalının miqrasiyasının qarşısı alınmalı, bu məqsədlə inkişaf etmiş ölkələrin təhsil sistemləri ilə qarşılıqlı təsirlər daha da genişləndirilməli, təqaüd proqramları inkişaf etdirilməli, mütəxəssislərin Vətənə qayıdışı həvəsləndirilməli, Vətənə "intellektual qayıdış" (ideyaların, peşə biliklərinin qayıdışı) potensialından da istifadə edilməli olduğu vurğulanır.

**Dissertasiyanın əsas məzmunu müəllifin tədqiqatın mövzusu üzrə nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı. "Elm və təhsil" –2017. 16 ç/v

2. Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. Bakı – Mütərcim – 2016. 12,5 ç/v (A.Babayeva ilə birlikdə)

3. Didaktika. Dərs vəsaiti Bakı,ADPU-2015.7ç/v.(M.İlyasov ilə birlikdə)

4. A.O.Çernyayevskinin maarifçilik fəaliyyətinin tədqiqi tarixindən. Kitab. Bakı-2010 11.ç/v (İ.İsayev ilə birlikdə)

5. Pedaqoji məntiq (Azərbaycan dilində) Dərs vəsaiti. Bakı, 2009. 10,5 ç/v (A.Həsənov ilə birlikdə)

6.İnformasiya texnologiyaları və pedaqoji profilli mütəxəssislərin iqtisadi təhsilinə verilən tələblər// ABU-nun xəbərləri (Pedaqoji və Psixoloji elmlər seriyası) Bakı- ABU 2008,№3.s29-32

7. Ali məktəb tələbələrinin iqtisadi təhsilinin təşkilinə müasir yanaşmalar // "Təhsil ocağı" Elmi, metodiki və publistik jurnal. Bakı-2008. №1, s.87-91

8. Pedaqoji fəaliyyətdə sinergetik yanaşmanın aktuallığı haqqında// ABU-nun xəbərləri (Pedaqoji və Psixoloji elmlər seriyası ) Bakı- ABU 2008, №4 s 40-45

9. Gənclərin iqtisadi tərbiyəsinə verilən müasir tələblər//ABU-nun xəbərləri (Pedaqoji və Psixoloji elmlər seriyası ) Bakı-ABU.2009, №1 s.35-39

10. İqtisadi tərbiyənin mənimsədilməsinə verilən müasir tələblər// "Təhsil ocağı" Elmi, metodiki və publistik jurnal. Bakı-2009. №3-4. S 58-62

11. Orta məktəblərdə fizika fənninin tədrisi prosesində şagirdlərin iqtisadi tərbiyəsi/ Kooperasiya:Tarix və reallıqlar mövzusunda elmi-nəzəri konfransın materialları. Bakı-Kooperasiya nəşriyyatı 2009 (II buraxılış) s.419-425

12. Mədəniyyət və təhsil sistemində ümumbəşəri dəyərlər // ABU-nun xəbərləri (Pedaqoji və psixoloji elmlər seriyası) Bakı ABU 2010. №2 s 28-32

13. Уровень информационной культуры будущих специалистов как показатель качества образования/ "İnnovasiya, Təhsilin keyfiyyəti və inkişafı" I Beynəlxalq Elmi konfransın materialları. BPKİYİ. Bakı, 9-11 noyabr 2010. s 196-197

14. Инновации и качество образования / "İnnovasiya,Təhsilin keyfiyyəti və inkişafı" II Beynəlxalq Elmi konfransın materialları. BPKİYİ. Bakı, 7-9 iyun 2012. s 201-202

15. Şəxsiyyətin hərtərəfli inkişafında mədəniyyətin rolu // Pedaqoji Universitet xəbərləri. Bakı -ADPU -2012 №3 s 301-305 (Babayeva A ilə birlikdə)

16. Sinifdənxaric və məktəbdənkənar tərbiyəvi tədbirlər prosesində vətəndaşlıq şüurunun formalaşması // Pedaqoji Universitet xəbərləri. Bakı-ADPU - 2013№1.s.316-320 (Babayeva A ilə birlikdə)

17. Şəxsiyyətin formalaşmasında iqtisadi təhsil və tərbiyənin rolu// Məqalə. Pedaqoji Universitet xəbərləri. Bakı-ADPU-2013 №3 s. 445-448

18. Müasir mərhələdə məktəbli gənclərin iqtisadi tərbiyəsi və təhsilinin təkmilləşdirməsi// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU- Bakı, 2013 №3 s 256-259

19. Fizika fənninin tədrisi prosesində şagirdlərin iqtisadi tərbiyəsi və təhsili//Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı, 2013 №3. s 260-265

20. Müəllimin pedaqoji mədəniyyətinin prinsipləri və funksiyaları// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı-2014 №2 s312-319

21. Профессионально-педагогическая культура учителя на современном этапе/ "İnnovasiya,Təhsilin keyfiyyəti və inkişafı" III Beynəlxalq Elmi konfransın materialları. BPKİYİ. Bakı,11-13 iyun 2014, s.176-178

22. Bilik və informasiya postsənaye cəmiyyətinin intellektual kapitalının ən mühüm elementləri// Sivilizasiya jurnalı. BAU. Bakı. 2014 №11 s.9-13

23. Postindustrial sivilizasiyada təhsilin rolu// İlahiyyat fakültəsinin elmi məcmuəsi. BDU 2014 dekabr. №22 s.297-306

24. Интернационализасия высшего образования: понятие,стратегии // «Гилея: научный вестник» Выпусник 88(9) г. Киев -2014 s.277-280

25. Postsanayi toplumu teorisi:Z.Brzejinski,A.Toffler ve D.Bell Bakı, 22 декабр 2014 –Newtimes.az, Uluslararsı politika akademisi 22 aralık 2014 (Türkiyə)

26. Postindustrial sivilizasiyanın ümumi səciyyəsi// Sivilizasiya jurnalı. BAU. Bakı -2015 №1 s.3-12

27. Postsənaye cəmiyyətində mədəniyyətin inkişaf problemləri. Bakı,17 fevral 2015 – Newtimes.az

28. Təhsildə innovasiyaların tətbiqi postindustrial cəmiyyətin tələbidir/ “Regional idarəetmə: İnnovativ yanaşmalar və perspektiv imkanlar Respublika elmi-praktik konfransın materialları. Bakı. DİA.Aprel- 2015, s.160-163

29. Müasir şəraitdə təhsilin əsas parametrlərində baş verən dəyişikliklər// Sivilizasiya jurnalı. BAU.Bakı 2015 №2 s.9-14

30. İnformasiya və postindustrial cəmiyyətdə onun rolu// Sivilizasiya jurnalı. BAU.Bakı 2015. №3 s.3 – 9

31. Pedaqoji fəaliyyətin təşkili prosesində sistemli-sinergetik yanaşmanın əsas cəhətləri // Sivilizasiya jurnalı. BAU. Bakı-2015.№5. s.11-16. (N.Quliyev ilə birlikdə)

32. Postindustrial cəmiyyətin sosial strukturunun dəyişməsində bilik və informasiyanın rolu// İlahiyyat fakültəsinin elmi məcmuəsi BDU.2015 iyun. №23. s.375-384

33. Проблемы Века гуманизации образования. Актуальные проблеми философии и социологии// (Научно-практич.журнал) г.Одесса. Выпуск 6. 2015 s.109-111

34. Qloballaşma şəraitində təhsilin inkişafının fundamental əsasları// Sivilizasiya jurnalı. BAU.Bakı 2015 № 6. s.3-12

35. Postindustrial cəmiyyətdə təhsilin sosiomədəni problemləri// Sivilizasiya jurnalı. BAU.Bakı 2015 № 7 s.9-14

36. Qloballaşma və ali təhsilin dəyərləri// Sivilizasiya jurnalı. BAU. Bakı 2015 № 8. s.3-8

37. İnformasiya cəmiyyətində təhsilin keyfiyyətli idarə olunması sosial-pedaqoji problem kimi// Pedaqoji Universitet xəbərləri. Bakı - ADPU-2015.№2 s.319-322

38. Şəxsiyyətin formalaşması və inkişafında biliklərə əsaslanan iqtisadiyyatın rolu//Sivilizasiya jurnalı.BAU. Bakı 2015 № 9 s.3-10

39. Человеческий капитал - стратегический обьект управления в век знаний// Интеллект, Инновации, Инвестиции. г.Оренбург. Академический журнал №3, 2015 s.120-124

40. "Biliklər cəmiyyəti"nin sütunları: biliklər, bilməmə, əxlaq// Pedaqoji Universitet xəbərləri. Bakı-ADPU-2015.№23.s.307-310

41. Təhsil islahatlarının sosiomədəni problemləri// İlahiyyat fakültəsinin elmi məcmuəsi BDU 2015 dekabr. №24 s.147-156

42. Социокультурный подход к образованию в свете Болонского процесса// Азимут научных исследований: педагогика и психология. Россия. Г.Тольятти 2015 № 4(13) s.74-76

43. Ali məktəblərdə humanitar fənlərin tədrisinə dair// Sivilizasiya jurnalı. BAU.Bakı 2016 № 1 s.3-8

44. Философские основания информационной культуры личности// Азимут научных иследований: педагогика и психология. Россия. Тольятти. 2016. том 5 № 1(14) s.177-179.

45. İnformasiya mədəniyyətinin formalaşdırılması informasiya cəmiyyətinin tələbidir// Sivilizasiya jurnalı. BAU.Bakı 2016 № 2 s.3-8

46. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın işığında Azərbaycan təhsilinin inkişaf perspektivləri// "Tarix, insan və ictimaiyyət". Elmi-nəzəri və elmi-metodik jurnal.TİPİİ. 2016 №1 s. 80-87.

47. Qloballaşma kontekstində təhsilin ümumi dəyərləri// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı-2016 №1 s.354-359

48. Традиции азербайджанского высшего образования в контексте интеграции в европейское образовательное пространство// Bісник. Житомирского державного университету имени Ивана Франка Филосовськи науки Випуск №1(82) 2016. Украйни s.85 – 89

49. Cəmiyyətdə informasiyanın rolunun araşdırılmasının nəzəri-metodoloji aspektləri// İlahiyyat fakültəsinin elmi məcmuəsi BDU. 2016 iyun. №25 s.363-371

50. Postneft dövrü intellekt dövrüdür// "Mədəniyyət dünyası",elmi - nəzəri məcmuə, XXX1-buraxılış. Bakı, ADMİU-2016. №1.s. 194-200

51. Azərbaycan təhsilinin modernləşdirilməsi prinsipləri// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.BSU.Bakı-2016 №3 s.209-213

52. Стратегия интернационализации как фактор повышения конкурентоспособности высшей школы// Дніпропетровський національний університет імені Олеся Гончара. Філософія і політологія в контексті сучасної культури. Науковий журнал 2016 Випуск 3 (12) s.159-165

53. Qloballaşma: təhdidləri və açdığı imkanlar// Naxçıvan, NDU-nun Elmi əsərləri, humanitar elmlər seriyası, 2016 №4 (78), s.168-171 (N.Quliyev ilə birlikdə)

54. Pedaqoji təhsilin formalaşmasında fəlsəfənin rolu// Sivilizasiya jurnalı. BAU. Bakı. Cild 5 №3 2016 (31) s.46-50

55. Ali təhsilin beynəlmilləşməsi: problemlər və perspektivlər// AMEA-nın Fəlsəfə İnstitutunun.Elmi əsərləri. 2016. №1 (26). s. 75-80

56. "Biliklər cəmiyyəti"nin imperativləri// GeoStrategiya jurnalı. №06 (36) Bakı-2016 s.75-80

57. "Biliklər cəmiyyəti"nə aparan yol// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı-2016 №4. s.20-22

58. Ali təhsilin sosiallaşması prosesində şəxsiyyətin iqtisadi mədəniyyətinin formalaşması// Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri. cild: 12. №3.2016.s.426-429 (N.Quliyev ilə birlikdə)

59. Postindustrial cəmiyyətdə peşə strukturunda baş verən dəyişikliklər// Naxçıvan, NDU-nun Elmi əsərləri, İctimai elmlər seriyası, 2016 №5 (79) s.126-129

60. Müasir dövrdə klassik universitet modelinin transformasiyası// İlahiyyat fakültəsinin elmi məcmuəsi. BDU 2016 dekabr. №26 s.279-284

61. Qloballaşma şəraitində ali məktəblərin beynəlmiləşmə strategiyası// "Mədəniyyət dünyası", elmi-nəzəri məcmuə, XXXII-buraxılış, Bakı, ADMİU-2016 №2. s.104-110

62. Təhsil problemləri sosiomədəni kontekstdə// GeoStrategiya jurnalı. №01(37) Bakı- 2017 s.23-26

63. Multikultural səriştəlilik peşə pedaqoji səriştəliyin aparıcı elementi kimi/ Mədəni müxtəliflik: Dünya və Azərbaycan mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları Bakı–BDU 29 aprel 2016 s.258-260

64. Təhsilin humanistləşməsi şəraitində gələcək müəllimin pedaqoji mədəniyyəti/ Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" mövzusuda elmi-praktik konfransın materialları. Bakı - BDU 4-5 may 2016 s.244-248

65. Təhsil problemləri sosiomədəni kontekstdə// GeoStrategiya jurnalı. № 01(37) Bakı- 2017 s.23-26

66. Təhsil fenomeni metodoloji plüralizm müstəvisində//Naxçıvan, NDU-nun Elmi əsərləri, İctimai elmlər seriyası, 2017 №2 (83) s.196-199 (N.Quliyev ilə birlikdə)

67. Təhsil mentaliteti metodoloji paradiqma kimi// GeoStrategiya jurnalı № 04 (40). Bakı – 2017.s.36-40

68. Образование как аутопойетическая система// Актуальны проблеми философии и социологии. (Научно-практичний журнал) г.Одеса выпуск 18/2017 s.104-106

69. Təhsilin postindustrial inkişaf istiqamətləri//İlahiyyat fakültəsinin elmi məcmuəsi BDU 2017 iyun. №27 s.217-223

70. Təhsilin qloballaşması və qlobal təhsilin mahiyyəti// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı-2017 №3 BSU s.301-305

71. Mədəniyyət və təhsilin qarşılıqlı əlaqələri//Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXIII-buraxılış Bakı, ADMİU-2017 №1 s.155 -161

72. Təhsilin sosiomədəni funksiyaları// İlahiyyat fakültəsinin elmi məcmuəsi. BDU 2017 dekabr. №28 s.167-174

73. Təhsilin sosiomədəni inkişaf mərhələləri//Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXIV-buraxılış Bakı, ADMİU-2017, №2 s.229 -233

74. Təhsil paradiqmaları sosial-mədəni fenomen kimi// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU. Bakı-2018 №2 s.203-205

75. Təhsilin təşkili prosesində sinergetik metodologiyanın prinsipləri Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri - 2018" Beynəlxalq konfransın materialları. Bakı. Azərbaycan Universiteti. 14-15 May 2018.s.600-601 (Z.Mehrəliyeva ilə birlikdə)

76. Professional-pedaqoji mədəniyyətin mahiyyəti və əsas komponentləri// İlahiyyat fakültəsinin elmi məcmuəsi BDU 2018 iyun. №29 s.207-215

77. Müasir təhsil paradiqmalarının fəlsəfi əsasları// Naxçıvan, NDU-nun Elmi əsərləri, İctimai elmlər seriyası, 2018 №2 (91) I cild, s.138-142 (N.Quliyev ilə birlikdə)

78. The human capital of the country must asrategic management objec// PONTE Journal. May 2018 .Vol. 74, Issue 5 (http://dx.doi.org/ 10. 21506/j. ponte.2018.5.8)

79. Postindustrial development perspectives of Education and the new challenges//Milton Studies Journal.Volume 62, 2018, Issue 4, pp 32-38

80. Postqeyri-klassik dövr və təhsil ideyaları // AMEA-nın Fəlsəfə İnstitutunun elmi əsərləri, 2018, №1 (30) s. 38-42

**Муслим Гатам оглу Назаров**

# СОЦИОКУЛЬТУРНЫЕ ПРОБЛЕМЫ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ ИНТЕГРАЦИИ В ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО ЕВРОПЫ

## Резюме

Представленная диссертация посвящена анализу социокультурных проблем образования в контексте европейской интеграции. Диссертация состоит из введения, 4 глав, разделенных на 12 параграфов, заключения и списка использованнной литературы.

Во **Введении** работы обосновывается актуальность темы, излагается степень ее разработанности, формулируются цели и задачи, определяется методология исследования, научная новизна работы, раскрывается ее теоретическая и практическая значимость, даются сведения о ее апробации и структуре.

В первой главе диссертации **«Роль интеллектуального капитала в постиндустриальном обществе»** дана общая характеристика постиндустриальной цивилизации, проанализированы важнейшие компоненты интеллектуального капитала постиндустриального общества – знание и информация, обосновано место интеллектуального капитала как доминантного фактора производства в постиндустриальном обществе, изложены проблемы управления интеллектуальным капиталом Азербайджана как стратегическим объектом государственного управления. Отмечается, что специфика постиндустриального общества в том, что знание и информация здесь выступают не только фактором производства, но и продуктом научного труда, элементом инфраструктуры и способностью человеческого капитала. По мере исчерпания традиционных ресурсов и источников развития экономический рост обеспечивается за счет человеческого капитала. Но ВВП как традиционный показатель прогресса не может в полной мере отразить состояние экономики в информационном обществе. Основываясь только на ВВП, национальные правительства приходят к ошибочным выводам относительно экономической мощи государства. На основе этого тезиса делается вывод о необходимости

разработки адекватных методов управления человеческим капиталом в экономике нематериальных ресурсов.

Во второй главе рассматриваются **«Место и тенденции развития образования в постиндустриальном обществе».** В отдельных параграфах данной главы исследуются роль образования в постиндустриальном обществе, основные тенденции развития образования в информационном обществе, сущность гуманитарной парадигмы образования. На основе применения социокультурного подхода к образованию как эпистемологического синтеза разнообразных методов и принципов обосновывается мысль о том, что образование есть целостный культурный феномен, и одним из факторов, оказывающих влияние на образование, является культура данного общества. В разные исторические периоды и в разных условиях сформировались различные системы образования. Отмечается, что культура определяет внутреннее содержание (идею) образования, его структуру, формы проявления. Идеи образования должны гармонично вписываться в систему социальных ценностей, быть тесно связаны с другими социальными идеалами и не противоречить им. Одним из важных путей обеспечения этого является гумманитаризация образования.

Третья глава посвящена анализу **«Социокультурных факторов глобализации и модернизации образования».** В контексте данной проблемы анализируются сущность протеекающих в современном мире глобализационных, модернизационных, инновационных процессов, необходимости формирования инновационной и информационной культуры. Отмечается, что глобализация – одно из самых противоречиивых явлений современности. Она, с одной стороны, она есть атрибутивная черта современной цивилизации, с другой, – она представляет собой управляемый процесс, так как является порождением протеекающих геополитиических процессов. Глобализация сопровождается противоречивыми процессами практически во всех сферах общества, в том числе в культуре и образовании как ее составной части. Высшее образование, рынок труда высококвалифицированных специалистов уже фактически глобализовались. Глобализация связана с модернизацией общества, фундаментом которой является инновационная культура,понимаемая как созданные обществом новые ценности, мера усвоения новшеств. Основной детерминантой инновационной культуры являются социокультурные факторы. В обоснование этой мысли приводится тот факт, что, с одной стороны, дей-

ствующие в социальной системе причинные факторы являются феноменами культуры, с другой, – все причинные факторы, воздействующие на инновационную культуру, опосредованы таким феноменом, как общественная психология. Рассмотрение инновационной культуры в социокультурном контексте предполагает рассмотрение ее и как модели организации сосуществования людей, и как явления, находящегося под влиянием таких субъективных факторов, как менталитет, мотивы инновационного поведения. Автор отмечает также, что для понимания и активного участия в глобализационных процессах образование должно формировать информационную культуру через привитие знаний об источниках информации, навыков поиска и обработки информации, поведении в ситуациях принятия решения в других культурах, интеркультурную компетентность.

В последней, четвертой главе диссертации рассматриваются **«Традиции азербайджанского образования и стратегия их модернизации».** В отдельных параграфах данной главы исследуются социокультурные традиции азербайджанского образования и социокультурная обусловленность его модернизации в контексте интеграции в европейское образовательное пространство, национально-культурные особенности реализации концепции Болонского процесса. Отмечается, что современное азербайджанское законодательство в области образования разрабатывается в соответствии с европейским законодательством, что идет в разрез с социокультурными реалиями Азербайджана, менталитетом, а, значит, и реалиями образования. Появление пропасти между законодательством и реальностью с необходимостью ведет к падению авторитета образования. Необходимо восстановить единство идеи образования с национальной культурой, объективно существующей социокультурной реальностью. Чтобы вернуть азербайджанское образование в «лоно» национально-духовной культуры, необходимо разработать его гуманитарную парадигму. Эту парадигму должны разрабатывать специалисты самых различных областей – философы, социологи, этнографы, психологи, педагоги, юристы, представители других наук о человеке и обществе.

В **Заключении** диссертации обобщаются основные положения и подводятся итоги проведенного исследования.

**Muslim Hatam Nazarov**

## SOCIOCULTURAL PROBLEMS OF EDUCATION IN THE CONTEXT OF INTEGRATION INTO EDUCATIONAL SPACE OF EUROPE

### Summary

The presented thesis is devoted to the analysis of socio-cultural problems of education in the context of European integration. The thesis consists of an introduction, four chapters divided into 12 paragraphs, conclusion and a list of used literature. In the introduction of the work, the relevance of the topic is substantiated, the degree of its development is expounded, goals and tasks are formulated, the methodology of research is determined, the scientific novelty, theoretical and practical significance of the work are revealed, and its approbation and structure is given.

**In the first chapter of the thesis "The Role of Intellectual Capital in a Post-Industrial Society"**, a general characteristic of post-industrial civilization is given, the most important components of the intellectual capital of a post-industrial society are analyzed - knowledge and information, the place of intellectual capital as the dominant factor of production in a post-industrial society is substantiated, the problems of managing intellectual capital of Azerbaijan as strategic object of public administration are opened.

It is noted that the specificity of the post-industrial society is that the knowledge and information is not only a factor of production, but also a product of scientific work, an element of infrastructure and the ability of human capital. With the exhaustion of traditional resources and sources of development, economic growth is ensured by human capital. But GDP as a traditional indicator of progress cannot fully reflect the state of the economy in the information society. Based only on GDP, national governments come to erroneous conclusions about the economic strength of the state.

On the basis of this thesis it is concluded that to develop adequate methods of managing human capital in the economy of intangible resources is necessary. **The second chapter considers "The place and trends of the**

**development of education in the post-industrial society"**. In separate paragraphs of this chapter, the role of education in the post-industrial society, the main trends in the development of education in the information society, the essence of the humanitarian education paradigm are explored. Based on the application of the socio-cultural approach to education as an epistemological synthesis of various methods and principles, the idea that education is a holistic cultural phenomenon is justified, and one of the factors influencing education is the culture of this society.

In different historical periods and in different conditions different educational systems were formed. It is noted that culture determines the internal content (idea) of education, its structure, forms of manifestation. The ideas of education should harmoniously fit into the system of social values, be closely related to other social ideals and not contradict them. One of the important ways to ensure this is the humanitarization of education.

**The third chapter is devoted to the analysis of "Socio-cultural factors of globalization and modernization of education"**. In the context of this problem, the essence of the globalization, modernization, innovation processes taking place in the modern world and the need for the formation of an innovative and information culture are analyzed. It is noted that globalization is one of the most controversial phenomena of our time. On the one hand, it is an attribute of modern civilization, on the other hand, it is a controlled process, as it is a product of ongoing geopolitical processes.

Globalization is accompanied by contradictory processes in almost all spheres of society, including in culture and education as an integral part of it. Higher education, the labor market of highly qualified specialists has actually been globalized. Globalization is associated with the modernization of society, the foundation of which is an innovative culture, understood as a new value created by society, a measure of assimilation of innovations. The main determinant of innovation culture is socio-cultural factors. In support of this idea, the fact that, on the one hand, the causative factors operating in the social system are cultural phenomena, on the other hand, all the causal factors affecting the innovative culture are mediated by a phenomenon such as social psychology.

The consideration of innovative culture in the socio-cultural context presupposes its consideration both as a model for the organization of human coexistence, and as a phenomenon that is influenced by such subjective factors as mentality, motives of innovative behavior. The author

also notes that, in order to understand and actively participate in globalization processes, education must form an information culture by inculcating knowledge about sources of information, skills of searching and processing information, behavior in decision-making situations in other cultures, and intercultural competence.

**The last fourth chapter of the thesis deals with "The traditions of Azerbaijani education and the strategy of their modernization"**. In separate paragraphs of this chapter, the socio-cultural traditions of Azerbaijani education and the socio-cultural conditioning of its modernization in the context of integration into the European educational space, national and cultural features of the implementation of the concept of the Bologna process are explored. It is noted that modern Azerbaijani legislation in the field of education is being developed in accordance with European legislation, which is contrary to the socio-cultural realities of Azerbaijan, the mentality, and, therefore, the realities of education.

Therefore, the theory and practice of Azerbaijani education are characterized by crisis phenomena. The appearance of a gap between legislation and reality necessarily leads to a drop in the authority of education. It is necessary to restore the unity of the idea of education with the national culture, an objectively existing socio-cultural reality. To restore Azerbaijani education to the "bosom" of national and spiritual culture, it is necessary to develop its humanitarian paradigm. This paradigm should be developed by specialists of various fields-philosophers, sociologists, ethnographers, psychologists, teachers, lawyers, representatives of other sciences about man and society.

In the conclusion of the thesis the main provisions and the results of the research are summarized.

Çapa imzalanıb: 22.10.2018.
Format: 60x84 1/16. Tiraj: 150.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: *mutarjim@mail.ru*

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**МУСЛИМ ГАТАМ оглу НАЗАРОВ**

# СОЦИОКУЛЬТУРНЫЕ ПРОБЛЕМЫ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ ИНТЕГРАЦИИ В ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО ЕВРОПЫ

**Специальность: 7207.01 – Социальная философия**

**А В Т О Р Е Ф Е Р А Т**

**на соискание ученой степени**
**доктора наук по философии**

**Баку – 2018**